QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 166 (5638) **5 sentyabr** 2018-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Azərbaycan türkdilli dövlətlərlə münasibətləri dostluq və qardaşlıq zəminində qurub

*İlham Əliyev: “Bizim əlaqələrimiz siyasi, iqtisadi, ticarət, energetika, nəqliyyat, humanitar sahələri əhatə edir və biz bütün istiqamətlər üzrə gözəl nəticələr görürük”*



Səh 2

11

**İlqar Məmmədov-saxta “qəhrəman” obrazı**



11

**Araz Əlizadə: “İlqar Məmmədovun başını ABŞ səfirliyində xarab ediblər”**



4

**Dövlət Komissiyası “Azərenerji” ASC-nin fəaliyyətində ciddi nöqsanlar aşkara çıxarıb**



# Azərbaycan türkdilli dövlətlərlə münasibətləri dostluq və qardaşlıq zəminində qurub

*İlham Əliyev: "Bizim əlaqələrimiz siyasi, iqtisadi, ticarət, energetika, nəqliyyat, humanitar sahələri əhatə edir və biz bütün istiqamətlər üzrə gözəl nəticələr görürük"*

***Azərbaycan ilə dünya ölkələri arasında qarşılıqlı münasibətlər ölkələr arasında əməkdaşlıq və dostluq əlaqələrinin inkişafında olduqca mühüm mərhələdir. Qarşılıqlı faydalı tərəfdaşlıq xarakteri daşıyan bu münasibətlər çərçivəsində keçirilən görüşlər, beynəlxalq konfranslar, simpoziumlar və s. xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanın Avropa dövlətləri ilə yanaşı, türkdilli dövlətlərlə də münasibətləri qarşılıqlı şəkildə davam etməkdədir. 3 oktyabr 2009-cu il tarixində Naxçıvan şəhərində keçirilən Zirvə görüşündə imzalanmış Naxçıvan Sazişinə əsasən yaradılmış Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fəaliyyətinin əsas məqsədi türkdilli ölkələr arasında hərtərəfli əməkdaşlığa yardım etməkdir. Təşkilatın yaradılmasında 4 təsisçi ölkələrdən biri olan Azərbaycan yarandığı ilk tarixdən etibarən bu təşkilatla sıx əməkdaşlıq edir. Yüksək səviyyəli görüş və dialoqlar nəticəsində Qazaxıstan, Qırğızıstan, Türkiyə və Azərbaycan arasında müxtəlif sahələri əhatə edən əməkdaşlıq daha da möhkəmlənir. Regional məsələlərdə, investisiya, nəqliyyat, təhsil və digər sahələrdəki qarşılıqlı münasibətlər inkişaf edir. Regional əməkdaşlığa töhfə verən layihələr diqqətdən yayınmır.***



## "...AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜ BƏRPA EDİLƏCƏK VƏ BÖLGƏDƏ SÜLH VƏ ƏMƏKDAŞLIQ YARANACAQDIR"

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası üzv ölkələr arasında, mütəmadi olaraq, təhlükəsizlik məsələləri üzrə məsləhətləşmələr keçirir. Belə ki, üzv ölkələrin yüksək vəzifəli şəxslərinin görüşlərində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Əfqanıstan üçün İstanbul prosesi, regional münaqişələr, beynəlxalq terrorizmlə mübarizə və s. məsələlər müzakirə edilmişdir. Bu günlərdə Qırğızıstan Respublikasında keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VI Zirvə görüşü də dövlətlər arasında müxtəlif sahələrdə salınan körpünün möhkəmlənməsində müstəsna rola malikdir. Sammitdə çıxış edən Azərbaycan Prezidenti Cənab İlham Əliyev "Bizim əlaqələrimiz siyasi, iqtisadi, ticarət, energetika, nəqliyyat, humanitar sahələri əhatə edir və biz bütün istiqamətlər üzrə gözəl nəticələr görürük", - deyərək regional təhlükəsizlik məsələlərinin xüsusi əhəmiyyət daşıdığını bildirib. İndiki dünyada yeni risklər, təhdidlərin yarandığını, yeni münaqişə, müharibə ocaqları alovlandığını diqqətə çatdırıb. Dünya ölkələrində keçirilən görüşlər və müxtəlif səpkili tədbirlərdə hər zaman Ermənistanın işğalçılıq siyasətindən geniş şəkildə danışan dövlət başçısı Samittdə də beynəlxalq birlik tərəfindən Azərbaycanın ayrılmaz hissəsi kimi tanınan Dağlıq Qarabağ və onun ətrafında yerləşən 7 rayonun Ermənistanın işğalı altında olduğunu iştirakçıların diqqətinə çatdırıb: "Bu işğal nəticəsində, torpaqlarımızın təxminən 20 faizi Ermənistan tərəfindən zəbt olunmuş, bir milyondan çox azərbaycanlı öz doğma torpağında qaçqın və köçkün vəziyyətinə düşmüşdür. Xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılmışdır, hərbi cinayətlər, Xocalı soyqırımı törədilmişdir". Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətində dolğun şəkildə çatdırılmasının nəticəsi olaraq, bu gün dünyanın 10-dan çox ölkəsində Xocalı soyqırımı rəsmən tanınır.

Günahsız insanların qətlə yetirilməsi analoqu olmayan vəhşilik kimi qəbul edilir. Hər zaman olduğu kimi, Cənab Prezident budəfəki çıxışında da, bu cinayəti törədənlərin ədalət qarşısında cavab verməli olacaqlarını bildirib: "Təsadüfi deyil ki, 20 il ərzində Ermənistana rəhbərlik etmiş kriminal rejim çökdü və bu gün bizim dediyimizi erməni xalqı deyir. Ümid edirik ki, Ermənistanın yeni rəhbərliyi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı konstruktiv mövqe tutacaq, tezliklə bizim torpaqlarımız işğaldan azad olunacaq, Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcək və bölgədə sülh və əməkdaşlıq yaranacaqdır".

## "SON YAY OLİMPİYA OYUNLARINDA MEDALLARIN SAYINA GÖRƏ, AZƏRBAYCAN 14-CÜ YERDƏ QƏRARLAŞMIŞDIR VƏ BU, BİZİM ÖLKƏMİZ ÜÇÜN TARİXİ NAİLİYYƏTDİR"

Bu gün Azərbaycan torpaqlarının iyirmi faizi işğal altında olsa da, ölkəmiz bütün sahələrdə inkişaf dövrünü yaşayır. İqtisadi göstəricilər, beynəlxalq aləmdə qazanılan imic, sabitlik adasına çevrilən Azərbaycan multkultural və tolerant mühit kimi də tanınır. Bütün bunlarla yanaşı, Azərbaycanda idman sahəsinə dövlət tərəfindən ayrılan diqqət, idman sahəsində qazandığımız nailiyyətlər, dünya və Avropa çempionatlarında idmançılarımızın əldə etdiyi medallar və mükafatlar ölkəmizin beynəlxalq idman təşkilatlarında da mövqeyinin xeyli güclənməsinə və Azərbaycanın dünyaya əsl idman ölkəsi kimi tanınmasına səbəb olub. Qeyd edək ki, bu il keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VI Zirvə görüşünün mövzusu da idmanla bağlı idi. Təbii ki, bu sahədə Azərbaycanın beynəlxalq məkanda uğurlarını sadalamağa kifayət qədəri əsasları var. Bu gün ölkəmizdə mövcud olan idman hərəkatı beynəlxalq idman ictimaiyyətinin və idman federasiyalarının həvəslə ən mötəbər yarışlarını ölkəmizə həvalə etməsinə dəlalət edir. Bakıda beynəlxalq idman yarışlarının yüksək səviyyədə təşkili Azərbaycanın bu sahədə dünya liderləri sırasında olduğunu göstərir. Buna son 15 ildə Azərbaycanın dünyada ən sürətli templərlə inkişaf edən ölkəyə çevrilməsi imkan verib. Bakıda və bütövlükdə, Azərbaycanda idman infrastrukturunun yaradılması istiqamətində böyük işlər görülüb. Bakı Olimpiya Stadionu, Tofiq Bəhramov adına Respublika Stadionu, Bakı Su İdmanı Sarayı, Bakı İdman Sarayı, "Baku Crystall Hall", Bakı Tennis Akademiyası, Heydər Əliyev adına İdman Arenası, "Bakcell Arena", Bakı Atıcılıq Mərkəzi, Bakı Ekspo Mərkəzi və digər idman kompleksləri müxtəlif növ yarışların keçirilməsinə imkan verir. İndi, nəinki paytaxt Bakıda, demək olar ki, ölkəmizin bütün bölgələrində müasir Olimpiya İdman Kompleksləri fəaliyyət göstərir. Sammitdə Cənab Prezident Azərbaycanda idmana çox böyük diqqət göstərildiyini qeyd edərək, ölkəmizdə bir neçə mötəbər beynəlxalq yarış keçirildiyini vurğulayıb. "Onların arasında, xüsusilə, I Avropa Oyunlarını qeyd etmək istərdim", - deyən Cənab Prezident digər qitə oyunlarından fərqli olaraq, Avropa Oyunlarının heç vaxt keçirilmədiyini diqqətə çatdırıb. Əlbəttə ki, ilk oyunlarının Bakıda keçirilməsi böyük nailiyyət oldu. "Bakı-2015" ilk Avropa Oyunlarının qədim tarixə, zəngin mədəniyyətə və adət-ənənələrə, yüksək tolerantlıq mühitinə və qonaqpərvərliyə malik olan Azərbaycanda keçirilməsinin əhəmiyyəti danılmazdır. "Bakı - 2015" Birinci Avropa Oyunlarının yüksək səviyyədə təşkil olunması və tarixi qələbənin qazanılması gələcəkdə ölkəmizdə daha möhtəşəm idman tədbirlərinin keçirilməsi üçün yeni perspektivlər açdı. "Ondan iki il sonra, yəni ötən il Bakıda IV İslam Həmrəyliyi Oyunları keçirilmişdir" - deyən Cənab İlham Əliyev bu oyunlarda Azərbaycan idmançılarının birinci yerə layiq görüldüyünü bildirib: "İki il ərzində, bir şəhərdə həm Avropa, həm İslam Oyunlarının keçirilməsi Azərbaycanın millətlərarası, dinlərarası multikulturalizmə verdiyi töhfənin növbəti təzahürü olmuşdur. Azərbaycan idmançıları Olimpiya Oyunlarında da yaxşı nəticələr göstərirlər. Son Yay Olimpiya Oyunlarında medalların sayına görə, Azərbaycan 14-cü yerdə qərarlaşmışdır və bu, bizim ölkəmiz üçün tarixi nailiyyətdir".

Görülən işlər və həyata keçirilən tədbirlər Azərbaycanın düzgün inkişaf yolu tutduğunu sübut edir. Zəngin və güclü idman ənənələri, peşəkar təşkilatçılığı ilə dünya idman ailəsində söz və nüfuz sahibi olan Azərbaycan daha bir neçə mötəbər idman yarışına ev sahibliyi edəcək. Hazırda paytaxtımız növbəti "Formula-1" yarışlarını keçirməyə hazırlaşır. 2020-ci ildə isə futbol üzrə Avropa çempionatının final mərhələsinin oyunlarına ev sahibliyi edəcək.

Bütün bu uğurlar, onu göstərir ki, hazırda Azərbaycan idmanı inkişafının ən yüksək dövrünü yaşayır.

Cənab Prezident Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VI Zirvə görüşünü yüksək qiymətləndirərək, çox böyük mənası olduğunu, çox gözəl nəticələrin olacağını bildirib: "Əsas nəticə də ondan ibarətdir ki, bizim dostluğumuz və qardaşlığımız daha da möhkəmlənəcək".

**Nəzakət ƏLƏDDİNQIZI**

# Azərbaycan-Türkiyə münasibətləri bütün dünya üçün nümunəvi qardaşlıq və inkişaf modelidir

## *İlham Əliyev: “Münasibətlər bütün sahələrdə daim inkişaf edir”*



***Məlum olduğu kimi, avqustun 30-da Türkiyə Böyük Millət Məclisinin sədri Binəli Yıldırım, ilk səfərini Azərbaycana etmişdir.***

Ümumiyyətlə, hər iki dövlətin yeni vəzifəyə başlayan rəsmilərinin ilk səfərlərini qardaş ölkəyə etdiyini vurğulayan Türkiyə Böyük Millət Məclisinin sədri Binəli Yıldırım çıxışı zamanı vurğulayıb ki, bu, ölkələr arasında formalaşan ənənədir: “Biz də bu ənənəni davam etdiririk. Türkiyə Böyük Millət Məclisinin yeni sədri olaraq, ilk səfərlərimdən birini dost və qardaş Azərbaycana etmişəm”.

Binəli Yıldırım iki ölkə arasında ikitərəfli əlaqələrin yüksək səviyyədə inkişaf etdiyini də vurğulayıb: “Azərbaycan-Türkiyə münasibətləri bütün sahələrdə ən yüksək səviyyədədir. İstər ikitərəfli əlaqələrdə, istərsə də regional məsələlərdə mövqeyimiz eynidir”. Türkiyə Böyük Millət Məclisinin sədri səfər çərçivəsində bir sıra yüksək səviyyəli görüşlər keçirdiyini, səmərəli müzakirələr apardığını qeyd edib. Ulu Öndər Heydər Əliyevin “Bir millət, iki dövlət” kəlamını xatırladan parlament sədri ölkələrimiz arasında ticarət əlaqələrinin və qarşılıqlı sərmayə qoyuluşunun genişləndiyini, strateji layihələrin, davamlı olaraq, həyata keçirildiyini, bütün istiqamətlərdə əlaqələrimizin gündən-günə daha da inkişaf etdiyini vurğulayıb.

### Azərbaycan-Türkiyə əlaqələri son 26 ildə

14 yanvar 1992-ci il tarixində Azərbaycan və Türkiyə arasında diplomatik münasibətlərin qurulması ilə bağlı müqavilənin imzalanmasından 26 il keçir. 18 oktyabr 1991-ci il tarixində müstəqillik aktı qəbul edən Azərbaycan Respublikasını Türkiyə bir ay keçmədən, yəni noyabrın 9-da tanıyan ilk dövlət oldu. Türkiyə ilə Azərbaycan arasında diplomatik əlaqələr isə, rəsmi olaraq, 1992-ci ilin 14 yanvarından başladı. İkili əlaqələrin artırılması və gücləndirilməsi məqsədilə 2010-cu ildə prezidentlər səviyyəsində Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası yaradıldı. Sonra Türkiyə-Azərbaycan-Gürcüstan, Türkiyə-Azərbaycan-İran və Türkiyə-Azərbaycan-Türkmənistan üçlü görüşləri keçirildi, regional sabitlik, sülh və rifahı təmin edəcək əhəmiyyətli mexanizmlər işlənildi. Növbəti mühüm addım isə Xəzər dənizi enerji qaynaqlarının dünya bazarına çıxarılmasını nəzərdə tutan Bakı-Tbilisi-Ceyhan Boru Kəməri və Bakı-Tbilisi-Ərzurum Qaz Boru Kəməri layihələrinin reallaşdırılması Azərbaycan və Türkiyə arasında strateji ortaqlığa gedən yolda mühüm addım oldu. Bu gün iki ölkə arasında ticarət həcmi təxminən 5 milyard dollardır. Hər iki ölkənin hədəfi 2023-cü ilə qədər ticarət həcmini 15 milyard dollara çatdırmaqdır.

### Azərbaycan-Türkiyə həmrəyliyi qardaşlıq xətti üzrə inkişafdadır

İki ölkə arasında bu həmrəylik dövlət başçılarının apardığı uğurlu siyasətində aydın şəkildə görmək olur. Belə ki, Prezident İlham Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyinin qeyd olunması ilə bağlı müvafiq Sərəncamı ilə 2018-ci ili “Azərbaycan Xalq Cümhuriyyəti İli” elan etməsi, Parisdə Bakının “Expo 2025” Sərgisinə namizəd şəhər olması sevincinə həmrəy olduğunu deyən Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın səsləndirdiyi bir fikrə diqqət edək: “Türkiyənin və Azərbaycanın bu həmrəyliyi, beynəlxalq təşkilatlarda da göstərilən həmrəylik çox vacibdir. Qarşıda Azərbaycanın EXPO məsələsi var. Türkiyə, təbii ki, bu məsələdə də bütün imkanları, bütün gücü ilə Azərbaycanı dəstəkləyəcək.”

Hər iki dövlət Birləşmiş Millətlər Təşkilatı, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, Qaradəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Türk Şurası və İslam Əməkdaşlıq Təşkilatında birgə əməkdaşlıq nümayiş etdirir. Azərbaycan və Türkiyə arasında hərbi əməkdaşlıq çərçivəsində iki ölkənin silahlı qüvvələri arasında koordinasiyanın inkişaf etdirilməsi məqsədilə hər il hərbi manevrlər təşkil olunur.

Türkiyə-Azərbaycan ikitərəfli əlaqələri bölgədə sabitlik və sülhün qurulmasına xidmət edir, heç bir ölkəyə təhdid yaratmır. Bu gün Türkiyə - Azərbaycan əlaqələri strateji ortaqlıq anlayışını tam mənasıyla daşıyır. Son 26 ildə iki ölkə arasında əldə edilmiş uğurlar sarsılmaz birlik, dostluq və qardaşlıq bağının bir göstəricisidir. Bunun bariz nümunəsi Türkiyə Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və suverenliyi içərisində, sülh yolu ilə həllinə səy etməsidir. Xüsusilə, 2016-cı il aprel döyüşləri, Azərbaycan-Ermənistan arasında yaşanan şiddətli qarşıdurmalar və can itkiləri Dağlıq Qarabağ müzakirələrini daha da artırdı. Amma təəssüf ki, Minsk üçlüyü qərarlı addım atmamaqla müddəti uzadır. Beynəlxalq qərarlara əməl olunmur. Heç nəyə baxmayaraq, Yuxarı Qarabağ probleminin Azərbaycanın ərazi bütövlüyü içində sülh yollarıyla həll edilməsi Türkiyənin Azərbaycana dəstəyilə davam edir.

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə-Azərbaycan qardaşlığı və strateji tərəfdaşlığının möhkəmliyini yüksək qiymətləndirməsi ilə bağlı dediyi əhəmiyyətli fikirlərini xatırlatmaq istərdik: “Xalqlarımızı birləşdirən ortaq tarix, ortaq mədəniyyətdir. Bunlar çox güclü əsaslardır. Ölkələrimizi birləşdirən insanların bir-birinə olan məhəbbətidir, qəlbindəki sevgidir. Bizi birləşdirən strateji müttəfiqliyimizdir... Türkiyə və Azərbaycan dünya miqyasında nadir müttəfiqlik münasibətlərini qura bilmişlər. Biz bütün sahələrdə dost, qardaş kimi bərabər hərəkət edirik. Bundan sonra da onilliklər ərzində Türkiyə və Azərbaycan daim bir yerdə olacaqlar... Ölkələrimiz daha da sıx birləşəcək, siyasi, iqtisadi və bütün başqa sahələrdə əməkdaşlığımız daha da dərinləşəcəkdir. Türkiyə-Azərbaycan iki qardaş xalq, iki qardaş ölkə kimi ancaq və ancaq irəliyə gedəcəkdir”.

**RƏFİQƏ KAMALQIZI**

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Etibar Pirverdiyevin “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin prezidenti vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Balababa Hüseynağa oğlu Rzayevin “Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin sədri vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.

***

Dövlət başçısının digər Sərəncamı ilə Balababa Rzayev “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin prezidenti təyin edilib.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası vətəndaşlarının 2018-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Şəmkir rayonunun Şəmkir-Abbaslı-Nərimanlı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

# “Azərbaycan ilə Rusiya arasındakı münasibətlər strateji xarakter daşıyır”

***Sentyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Soçidə keçirilən görüşündə bir çox məsələlər, həmçinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi müzakirə olunub, ondan çox vacib sənəd imzalanıb. Prezident İlham Əliyevin və Prezident Vladimir Putinin son üç ayda üç görüşü baş tutub. Bu görüşlər yaxın dostların və müttəfiqlərin mütəmadi görüşləridir.***




Bu sözləri sentyabrın 4-də “Sputnik Azərbaycan” multimedia mətbuat mərkəzində keçirilən mətbuat konfransında Rusiyanın Siyasi Tədqiqatlar İnstitutunun direktoru, politoloq və ictimai xadim Sergey Markov deyib.

Politoloq bildirib ki, Rusiya ilə Azərbaycan arasında münasibətlər həm prezidentlər səviyyəsində, həm də iqtisadi, siyasi və humanitar sahələrdə inkişaf edir. Diaspor üzvləri hər iki dövlətdə rahat fəaliyyət göstərirlər. Qeyd olunub ki, Cənubi Qafqaz ölkələri arasında rus dili ən çox Azərbaycanda yayılıb və bu Rusiya tərəfindən yüksək qiymətləndirilir. Bütün bu amillər onu göstərir ki, ölkələrimiz arasında strateji əməkdaşlıq mövcuddur.

Sergey Markov vurğulayıb ki, Dağlıq Qarabağ münaqişəsinin həlli Azərbaycan üçün ən vacib məsələdir. Lakin Ermənistanda baş verən hakimiyyət böhranı danışıqlar prosesini ləngidir. Prezident Vladimir Putinin Soçidə mətbuata bəyanatında dediyi kimi, Minsk qrupunun həmsədri kimi Rusiya bu münaqişənin sülh yolu ilə nizamlanmasına bütün mümkün köməyi göstərməkdə davam edəcək.

Rusiya Siyasi Tədqiqatlar İnstitutu direktorunun müavini Darya Qrebtsova bildirib ki, Rusiya və Azərbaycan prezidentlərinin Soçi görüşü Ermənistan mətbuatının yazdığına görə bu ölkədə ciddi gərginlik doğurub. Buna səbəb isə Rusiyanın Türkiyə ilə münasibətlərinin sürətlə inkişaf etməsidir. Çünki Azərbaycan Türkiyənin dostu, qonşusu və strateji tərəfdaşı olaraq Rusiya ilə Türkiyənin bir-birinə yaxınlaşmasında maraqlıdır. Üç dövlətin bir-birini dəstəkləməsi Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın xeyrinə həlli işinə müsbət təsir göstərəcək.

Darya Qrebtsova qeyd edib ki, humanitar sahədə əməkdaşlığın dərinləşdirilməsi də Azərbaycan və Rusiya prezidentlərinin Soçi görüşündə diqqət mərkəzində olub. Gələn ay Azərbaycanda növbəti Bakı Beynəlxalq Humanitar Forum keçiriləcək. Foruma bütün dünyadan alimlər, siyasi xadimlər qatılır. Forum iştirakçıları Azərbaycana gəlib buranın inkişafını öz gözləri ilə görürlər və bu ölkənin dostu olurlar. Tədbir iştirakçıları vətənlərinə qayıdandan sonra Azərbaycanda işlərin əslində necə olduğunu danışırlar. Çünki bir çoxları Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin və onun ətrafındakı rayonların işğal olunmasından xəbərsizdirlər. Bu forum Azərbaycan torpaqlarının işğal olunması haqqında məlumatın beynəlxalq ictimaiyyətə çatdırılmasında vacib rol oynayır. Azərbaycan Prezidenti İlham Əliyev bu işi forumda müvəffəqiyyətlə görür. Direktor müavini, həmçinin diqqətə çatdırıb ki, Rusiya və Azərbaycan arasında münasibətlər bir çox sahələrdə uğurla inkişaf edir, ölkələrimiz bir-birinə daha da yaxınlaşır. Sonda jurnalistlərin sualları cavablandırılıb.

# Rusiya mətbuatı ölkələrimiz arasında əməkdaşlığın intensiv inkişafını yüksək dəyərləndirir




***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına rəsmi səfəri bu ölkənin aparıcı mətbuat orqanlarının diqqət mərkəzindədir. Rusiyanın başlıca federal televiziya kanalları, xüsusən də, aparıcı nəşrləri tərəfindən yüksək qiymətləndirilir. Azərbaycan Prezidentinin qonşu ölkəyə səfərinin yekunları barədə Rusiya ictimaiyyəti pozitiv rəyə malikdir və gözləntilərinin də müsbət olduğu açıq-aşkar müşahidə olunur.***

Prezidentlərin Soçi görüşünün yekunlarına dair hökumətlərarası, müəssisələrarası bir çox mühüm sənədlərin imzalandığını yazan "Rossiyskaya qazeta" Prezident Vladimir Putinin fikirlərinə daha çox istinad edir və ölkələrimiz arasında iqtisadi əlaqələrin intensiv inkişafını yüksək dəyərləndirir. Ötən il əmtəə dövriyyəsinin təxminən 35 faiz artaraq, 2 milyard dollara çatdığını işıqlandıran qəzet, danışıqların yekunlarına dair iqtisadi əməkdaşlığın müxtəlif sahələrinə aid təsdiqlənmiş 5 "yol xəritəsi"nin əmtəə dövriyyəsini daha da artırmağa və inteqrasiya əlaqələrini intensivləşdirməyə imkan verəcəyindən bəhs edir.

Rusiya və Azərbaycan prezidentlərinin nəqliyyat infrastrukturu sahəsində əməkdaşlığa xüsusi önəm verdiyini, "Şimal-Cənub" Dəhlizini ən perspektivli layihə adlandırdıqlarını vurğulayan "Rossiyskaya qazeta" bu dəhlizin Cənubi Asiya və Yaxın Şərqdən İran vasitəsilə Avropaya yük daşımalarını xeyli sürətləndirməyə imkan verəcəyini ictimaiyyətin diqqətinə çatdırır. Qəzet Prezident İlham Əliyevin çıxışına da istinad edərək və sitat gətirərək yazır ki, Azərbaycan da öz tərəfindən ölkə ərazisində bu istiqamətdə bütün mühüm infrastruktur layihələrini həyata keçirib. Bu il Şimal-Cənub Nəqliyyat Dəhlizi ilə keçən illə müqayisədə 100 dəfə çox yük daşınıb. Bu, hələ başlanğıcdır, çünki bu genişmiqyaslı qlobal layihə çoxsaylı ölkələri və qitələri əhatə edəcək. Beləliklə, ölkələrimizin tranzit imkanları artacaq, minlərlə yeni iş yeri yaradılacaq".

Prezidentlərin Dağlıq Qarabağ münaqişəsinin həllinə dair müzakirələrə yer ayırdığını da diqqətə çatdıran "Rossiyskaya qazeta" Prezident Vladimir Putinin ölkəsinin ATƏT-in Minsk Qrupu çərçivəsində münaqişənin həllinə hərtərəfli kömək göstərəcəyi barədə fikirlərini də sitat gətirir. Məsələ burasındadır ki, Rusiya ictimaiyyətinin də, artıq Ermənistan tərəfinin bu münaqişədə haqsız, ədalətsiz olduğunun, qeyri-konstruktiv mövqe tutduğunun fərqində olması açıq-aşkar müşahidə olunur və məhz ölkə Prezidentinin öz fikirlərində də bu təzahür edir. Əsrlər boyu ruslardan asılı olan, daha dəqiq desək, onlara yük olan ermənilərin hiylələrliyi bu işğalçı ölkənin son hadisələrində, "məxməri inqilab" zamanı tam qabarıq şəkildə bir daha üzə çıxdı və başda ölkə Prezidenti Vladimir Putin olmaqla, bütövlükdə, Rusiya ictimaiyyətinin ermənilərin xislətindən, hiyləgərliyindən, simasızlığından, etibarsızlığından cana doyduğu, bir sözlə, heç kim üçün sirr deyil.

Azərbaycan Prezidentinin iki ölkə arasında hərbi-texniki əməkdaşlıq haqqında dedikləri də həmin qəzetdə Rusiya oxucularına təqdim olunur. Əlalxüsus, Prezident İlham Əliyevin, Silahlı Qüvvələrinin modernləşdirilməsini davam etdirmək üçün dünyada hərbi məhsulların ən mühüm istehsalçısı və beynəlxalq bazarların bu məhsullarla təchizatçısı olan Rusiya ilə Azərbaycan arasında reallaşdırılmış kontraktların həcminin 5 milyard dolları keçməsi barədə fikirlərini paylaşan "Rossiyskaya qazeta" ölkələrimiz arasında hərbi əməkdaşlığın bundan sonra daha da artacağına ümidlərini belə gizlətmir.

Soçidə Azərbaycan ilə Rusiya arasında imzalanan sənədlərdən, iki ölkə arasında malların hava nəqliyyatı ilə daşınması sahəsində gömrük hüquqpozmalarına qarşı mübarizə sahəsində qarşılıqlı fəaliyyət haqqında Protokol imzalanmasından bəhs edən "Kommersant" qəzeti isə yazır ki, bundan belə Rusiya və Azərbaycan "Qoşadaş" bloku və Xəzərin dibinin Azərbaycana aid hissəsində Abşeron yarımadasının şimalında neft və qaz potensialının öyrənilməsi ilə birgə məşğul olacaqlar. "Rosneft" və SOCAR, habelə, "Qaz Avtomobil Zavodu" QSC ilə "Azərmaş" ASC arasında da müqavilələr imzalalanıb". Göründüyü kimi, bu nəşr də, öz növbəsində, iqtisadi sahədə əməkdaşlığın perspektivlərinə toxunur və ölkə ictimaiyyətini ölkələr arasındakı əməkdaşlığın əhəmiyyətindən xəbərdar etmək niyyəti güdür. Daha doğrusu, ilk öncə, Rusiya mediasında, nəticə etibarı ilə isə həmin ölkə ictimaiyyətinin nəzərində bu əməkdaşlığa əhəmiyyət verildiyi aydın şəkildə müşahidə olunur.

Onu da qeyd etmək vacibdir ki, bu əməkdaşlıq Azərbaycan üçün də faydalıdır və bu münasibətlər ölkəmizə daha böyük perspektivlər vəd edir. Məhz Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində uğurlu nəticələrin, ən qısa zamanda, əldə edilməsi baxımından Rusiya və Azərbaycan arasındakı əlaqələrin, əlalxüsus, hərbi sahədə əməkdaşlığın xüsusi əhəmiyyəti var. Əvvəla, hərbi qüvvələrimizin ən modern silahlarla təchiz edilməsi baxımından, hərbi məhsulların ən mühüm istehsalçısı və beynəlxalq bazarların bu məhsullarla ən böyük təminatçısı olan Rusiya ilə bu sahədə əməkdaşlıq olduqca önəmlidir. Digər tərəfdən, Ermənistan üzərində böyük təsir imkanlarına malik olan Rusiyanın bu münaqişənin həllinə maraq göstərməsi və əlalxüsus, ölkəmizlə hərbi əməkdaşlıq əlaqələri qurması işğalçı dövlət üçün arzuolunmazdır və şübhəsiz ki, Qarabağ məsələsinin həllinə öz müsbət təsirini göstərməkdədir. Daha dəqiq desək, Rusiyanın Azərbaycanla hər bir sahədə, əlalxüsus, hərbi sahədə əməkdaşlığı Dağlıq Qarabağ münaqişəsinin həllini labüd edir və sürətləndirir.

***İnam HACIYEV***

# Dövlət Komissiyası "Azərenerji" ASC-nin fəaliyyətində ciddi nöqsanlar aşkara çıxarıb

*"Azərenerji"nin prezidenti Etibar Pirverdiyev tutduğu vəzifədən azad edilib*



2018-ci il iyulun 3-də Mingəçevir şəhərində yerləşən "Azərbaycan İstilik Elektrik Stansiyası" Məhdud Məsuliyyətli Cəmiyyətinin yarımstansiyalarından birində cərəyan transformatorunda qəza baş vermişdir. Qəza nəticəsində Azərbaycanın enerji sistemində ciddi problemlər yaşanmış, Bakı və Gəncə şəhərləri də daxil olmaqla, respublikanın 39 şəhər və rayonunun elektrik enerjisi ilə təminatında fasilə yaranmışdır.

AZƏRTAC-ın Azərbaycan Respublikası Prezidenti Administrasiyasından aldığı məlumatda deyilir ki, baş vermiş qəzanın səbəblərini araşdırmaq və nəticələrini aradan qaldırmaq məqsədilə elə həmin gün Azərbaycan Respublikasının Prezidenti tərəfindən Azərbaycan Respublikası Baş nazirinin birinci müavininin rəhbərliyi ilə Dövlət Komissiyası yaradılmışdır. Azərbaycan Prezidenti tərəfindən Dövlət Komissiyasına təqsirkar şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb olunması məqsədilə hadisənin başvermə səbəblərini araşdıraraq obyektiv rəy hazırlanması və gələcəkdə belə halların təkrarlanmaması üçün təkliflərin verilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər görülməsinə dair çox ciddi tapşırıqlar verilmişdir.

Ötən müddət ərzində Dövlət Komissiyası tərəfindən yerli və xarici ekspertlər, aidiyyəti dövlət orqanlarının və qurumlarının nümayəndələri də cəlb edilməklə, qəzanın başvermə səbəbləri ciddi araşdırılmış, mövcud çatışmazlıqlar və problemlər, habelə qəzanı doğuran hallar da əks olunmaqla, hərtərəfli və geniş rəy hazırlanaraq Azərbaycan Respublikasının Prezidentinə təqdim edilmişdir.

Hazırlanmış rəydə baş vermiş qəzanın əsas səbəblərindən biri kimi "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin qəzaya lazımi səviyyədə hazır olmaması, fəaliyyətində mövcud olan texniki və bir sıra digər çatışmazlıqlar üzündən qəzaya adekvat reaksiya verə bilməməsi, habelə nəticədə ölkənin enerji sistemində qəzaya gətirib çıxaran bir sıra digər nöqsanlara yol verdiyi qeyd olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti Dövlət Komissiyasının yekun rəyi ilə tanış olmuş və işdə yol verdiyi nöqsanlara görə "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Etibar Pirverdiyevi tutduğu vəzifədən azad etmişdir.

# Seymur Orucov: "Biz hər zaman tariximizlə fəxr etməliyik"



"Ümumiyyətlə bu gün Türk dünyasının birləşməyə, daha yaxından əməkdaşlıq etməyə çox böyük ehtiyacı var". Bunu SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, Partiyanın Gənclər Birliyinin sədri Seymur Orucov deyib.

Onun sözlərinə görə, Türk dünyası müəyyən problemlərinin həlli üçün ortaq hərəkət etmək məcburiyyətindədir: "Bununla belə türkdilli dövlətlərin ölkə başçıları tez-tez bir araya gəlirlər. Eləcə də parlament səviyyəsində TURKPA, Türk Konseyi, Türk Şurası, həmçinin dövlətləri, parlamentləri birləşdirən Türkdilli Dövlətlərin Parlament Assambleyası fəaliyyət göstərir. Bunlarla birlikdə də bizim ortaq keçmiş olduğumuz bir tarix var. Yəni biz kökümüz bir millətdənik və ayrı-ayrı müstəqil dövlətlərə çevrilmişik. Təbii ki, idmanın dünyada hər zaman məqsədi o olub ki, insanları bir-birinə birləşdirsin, onlara həmrəylik nümayiş etdirsin.

Qırğızıstanın İssık-Kul gölünün sahilində yerləşən Baktuu-Dolonotu kəndindəki cıdır meydanında üçüncü Dünya Köçəri Oyunlarının da birinci üstün cəhəti odur ki, biz keçmiş tariximizə nəzər salaq. Biz müəyyən torpaqlara köçəri olub gəlmişik və geri qayıdaraq gələcək gənc nəsilə bunları xatırladırıq. Həmçinin biz tarixi köklərimizi bərpa edirik və insanlarımıza nümayiş etdiririk ki, biz həmrəy olmalıyıq, məsələlərimizi birlikdə həll etməliyik. Artıq mədəniyyət sahəsinə qədər bu məsələlər dərinləşməyə başlayıb. Təbii ki, bu çox müsbət haldır. Düşünürük ki, bunu gələcəkdə ənənə halına çevirmək lazımdır. Bu, bizim keçmiş tariximizdir və biz hər zaman tariximizlə fəxr etməliyik".

# Azərbaycan sənayesi prioritet inkişaf mərhələsindədir

## *İlham Əliyev: “Azərbaycan öz sənaye potensialını müasirləşdirir və gücləndirir”*

***Davamlı və dinamik inkişafı, spesifik milli inkişaf modeli ilə tanınan Azərbaycan iqtisadiyyatın şaxələndirilməsi, informasiya müstəqilliyinin və təhlükəsizliyinin təmin edilməsi, ölkəmizdə kosmik sənayesinin inkişaf etdirilməsi və beynəlxalq kosmik məkana inteqrasiya istiqamətində böyük nailiyyətlər əldə edib. Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində, ölkəmiz getdikcə daha da yeniləşir, iqtisadi islahatları reallaşdıran və innovativ inkişafa yol açan dövlətə çevrilir. Dünya İqtisadi Forumunun Qlobal Rəqabətqabiliyyətlilik İndeksinə əsasən, Azərbaycanın öz mövqeyini möhkəmləndirərək, 37-ci yerdən 35-ci yerə yüksəlməsi və bu göstəriciyə görə bir sıra inkişaf etmiş ölkələri üstələyərək, MDB məkanında şəriksiz liderə çevrilməsi inkişafımızın daha bir göstəricisidir.***



Həyata keçirilən sənayeləşmə tədbirləri çərçivəsində neft-qaz, qızıl və digər hasilat sahələrində əldə edilmiş uğurlarla yanaşı, sənaye sahəsi genişləndirilmiş, yeni istehsal gücləri istifadəyə verilmiş, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli müəssisələr yaradılmışdır. Sumqayıt Texnologiyalar Parkının, Alüminium İstehsalı Kompleksinin və Azərbaycan Polad İstehsalı Kompleksinin yaradılması, Bakıda gəmiqayırma zavodunun fəaliyyətə başlaması, Gədəbəy və Daşkəsəndə qızıl-mis emalı zavodlarının qurulması, Sumqayıtda neft-kimya sənayesində modernizasiya işlərinə başlanılması və karbamid zavodunun inşası, Qaradağda sement zavodunun istehsal gücünün artırılması və yeni zavodun inşası, Qazaxda, Naxçıvanda yeni sement zavodlarının tikilib istifadəyə verilməsi və s. yeni müəssisələr qeyri-neft sənayesinin növbəti mərhələdə daha dərin şaxələndirilməsi üçün geniş imkanlar yaradır. Müasir texnologiyalara və qabaqcıl təcrübəyə əsaslanan yeni müəssisələrin yaradılması ilə Azərbaycanda istehsal edilən sənaye məhsullarının çeşidi və rəqabətqabiliyyətliyi də sürətlə artır. Hazırda ölkəmizdə fəaliyyət göstərən sənaye müəssisələrində müxtəlif tikinti materialları, avtomobil, kompüter, günəş batareyaları, elektrik avadanlıqları, ərzaq məhsulları, mebel və s. istehsal olunur, bir çox sənaye məhsulları üzrə Azərbaycan özünü təmin edir. Azərbaycanda ənənəvi sənaye sahələri ilə yanaşı, əvvəllər mövcud olmamış hərbi sənaye, kosmik və alternativ enerji sahələri yaradılmış və hazırda bu yeni sənaye sahələrinin inkişafı istiqamətində işlər davam etdirilir.

### Azərbaycan sənayesinin modernləşdirilməsi siyasəti

Prezident İlham Əliyev tərəfindən 2014-cü ilin “Sənaye İli” elan edilməsi, sənayenin inkişafı istiqamətində həyata keçirilən tədbirlər ölkəmizin regionun güclü sənaye mərkəzi kimi formalaşmasına təkan verməkdedir. Sərəncamda yazılır ki, son 10 ildə sənayenin inkişafında da böyük uğurlar qazanılıb, sənaye məhsulları istehsalının həcmi 2,7 dəfə artıb.

Belə ki, Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına uyğun olaraq, həyata keçirilən iqtisadi islahatlar və iqtisadiyyatın şaxələndirilməsi siyasəti nəticəsində, iqtisadiyyatın bütün sahələrində olduğu kimi, sənayenin inkişafında da böyük uğurlar qazanılıb, yüzlərlə müasir sənaye müəssisəsi açılıb. 2017-ci ildə ötən illə müqayisədə qeyri-neft sənaye məhsulları istehsalı 3,7 faiz artıb. Bu dinamika bu ilin birinci rübündə də davam edib, ötən ilin müvafiq dövrü ilə müqayisədə 9,9 faiz artıma nail olunub.

Ölkə Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasdakı nitqində bu məsələni xüsusi vurğulayaraq, bildirib ki, 2018-ci il də sənayenin inkişafı ilə bağlı əlamətdar il olacaq. Dövlət başçısı tərəfindən son 15 ildə həyata keçirilən iqtisadi siyasətin əsas istiqamətlərindən biri ölkənin sənayeləşdirilməsidir. Son dövrlər ölkədə açılan yeni müəssisələrin xarakteristikasına baxdıqda, görürük ki, belə müəssisələrdə üstünlük sənaye istehsalına verilir. Dövlətimizin başçısı diqqətə çatdırıb ki, sənaye parklarının yaradılması istiqamətində praktiki addımlar atılır: “Mingəçevirdə Yüngül Sənaye Parkının ilk fabriklərinin açılışı bu il gözlənilir. Sumqayıt Kimya Sənaye Parkında isə işlər çox uğurla gedir. Keçən ilin sonunda dörd yeni müəssisənin açılışı oldu və üç müəssisənin təməli qoyuldu. Əminəm ki, onların istifadəyə verilməsi bu il, ya da ki, gələn ilin əvvəllərində nəzərdə tutulacaq. Beləliklə, Sumqayıt Kimya Sənaye Parkının rezidentlərinin sayı 15-ə çatıb və qoyulan və qoyulacaq sərmayənin həcmi 2,7 milyard dollara bərabərdir. Bax, bu təşəbbüs görün nə qədər gözəl nəticə verir. 2,7 milyard dollar sərmayə qoyuluşu böyük rəqəmdir. Halbuki Sumqayıt Kimya Sənaye Parkının ərazisində hələ iki-üç il bundan əvvəl dağılmış binalar, çürümüş borular, infrastruktur - hamısı bərbad vəziyyətdə idi. Dövlət bu yükü öz üzərinə götürdü, vəsait ayırdı və bütün lazım olan infrastrukturu yaratdı. Digər sənaye parklarımızda da bu işi dövlət öz üzərinə götürür və götürməlidir.”





### Azərbaycan brendi xarici bazarlara çıxır

Dünya təcrübəsindən də görünür ki, hər bir regionun və ölkənin texnoparklar barədə özünəməxsus planları var. 15 rezidenti və 5700 nəfər işçisi olan Sumqayıt Kimya Sənaye Parkında hazırda ixtisaslı kadrların hazırlanması üçün müasir tipli peşə tədris mərkəzi, 5 rezident tərəfindən müxtəlif məhsullar, o cümlədən, polipropilen, yüksək sıxlıqlı polietilen tikinti materialları üçün qatqı, ferroərintilər, yüksək təzyiqə davamlı birləşdiricilər və kənd təsərrüfatında ziyanvericilərə qarşı pesdisidlər istehsal ediləcək müəssisələrin tikintisi davam etdirilir. 4 rezident isə yeni istehsal sahələrinin yaradılması üçün layihələndirmə işlərinə başlamışdır. “Baku Steel Company” və İtaliyanın “Danieli” şirkətləri arasında dəyəri 1,2 milyard avro olan müqaviləyə əsasən, “Azərboru” ASC-nin ərazisində tikiləcək 5 müəssisədən ibarət metallurgiya kompleksinin təməlinin qoyulmasına hazırlıq işləri aparılır. Yuxarıda qeyd olunan müəssisələrin tikintisinə təqribən 2,3 milyard ABŞ dolları həcmində investisiya qoyulacaq. Burada 2 mindən çox yeni iş yerinin açılması nəzərdə tutulur. İstehsal olunacaq məhsullar bu gün respublikamıza bütünlüklə xaricdən idxal olunur. Sənaye parkında istehsal olunacaq məhsullar daxili bazarın tələbatını ödəməklə yanaşı, “Made in Azerbaijan” brendi ilə xarici bazarlara da ixrac edilir.

### “Azərbaycan öz sənaye potensialını müasirləşdirir və gücləndirir”

Bunu Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkının ərazisində “SOCAR Polymer” layihəsi çərçivəsində inşa edilən polipropilen zavodunun açılışında çıxışı zamanı deyib.

Dövlətimizin başçısı qeyd edib ki, polipropilen zavodunun istifadəyə verilməsi və ilin sonunda polietilen zavodunun istifadəyə verilməsi nəticəsində, Azərbaycanın ixrac potensialı böyük dərəcədə artacaq: “Hər iki zavodda hər il 300 min ton məhsul istehsal olunacaq və məhsulun 70 faizi xarici bazarlara ixrac ediləcək. Beləliklə, Azərbaycan idxaldan asılılığı tamamilə aradan götürəcək və ölkəmizin böyük həcmdə qeyri-neft ixracı yaradılacaqdır.

Dövlət başçısı vurğulayıb ki, Azərbaycan öz sənaye potensialını müasirləşdirir və gücləndirir. Azərbaycanda sənayeləşmə siyasəti çox uğurla gedir: “Bu ilin altı ayında qeyri-neft sənayemiz 8,8 faiz artmışdır. Bu, görülən işlərin nəticəsidir. Bu zavodun və ilin sonunda polietilen zavodunun istifadəyə verilməsindən sonra bizim sənaye potensialımız daha da artacaqdır”.

Bir sözlə, bu il ölkəmizin gələcək inkişaf dinamikasını müəyyən edən sənaye sahəsinə mühüm diqqət yetirilməsi, bütövlükdə, iqtisadi gücümüzün daha da artmasına, neft-qaz amilindən asılılığın getdikcə azalmasına və iqtisadiyyatımızın dayanıqlı inkişafına əhəmiyyətli təsir göstərəcəkdir.

***RƏFİQƏ HÜSEYNOVA***

# "Dini mərasimlər: ənənəvilik və müasirlik"

## *Sabunçu və Binəqədi rayonlarında bu mövzuda seminar-müşavirə keçirilib*

***Bakı şəhərinin Sabunçu və Binəqədi rayonlarında həmin rayonların İcra Hakimiyyətlərinin və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) birgə təşkilatçılığı ilə "Dini mərasimlər: ənənəvilik və müasirlik" mövzusunda seminar-müşavirə keçirilib. SİA xəbər verir ki, seminar-müşavirədə deputatlar, rayonlarda fəaliyyət göstərən dini icmaların sədrləri, dini komissiyaların üzvləri, imamlar, kənd və qəsəbələrin icra nümayəndələri, bələdiyyə sədrləri, Rayon Ağsaqqallar Şurasının üzvləri iştirak ediblər.***





Sabunçu rayonunda keçirilən tədbiri giriş sözü ilə açan rayon icra hakimiyyəti başçısı aparatının ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Ədalət Teymurov rayonda mövcud dini durum haqqında məlumat verib. Ə.Teymurov DQİDK ilə birgə həyata keçirilən maarifləndirmə tədbirlərinin əhəmiyyətindən söhbət açaraq, dövlətimizin başçısının dini konfessiyalara daim yüksək diqqət və qayğı göstərdiyini vurğulayıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxış edərək Dövlət Komitəsinin apardığı maarifləndirmə işi, qabaqlayıcı tədbirlər, Qafqaz Müsəlmanları İdarəsi, yerli icra strukturları və digər qurumlarla birgə səmərəli fəaliyyət barədə danışıb. Qeyd edib ki, Azərbaycanda həmişə qarşılıqlı etimada və hörmətə əsaslanan mütərəqqi milli-mədəni və dini münasibətlər mövcud olub. Azərbaycanda tarixən İslam dininin müxtəlif təriqətlərinin birgəyaşayışı mövcud olub, təriqət baxımından qarşıdurma müşahidə edilməyib. Bu gün də məscidlərdə müxtəlif təriqətlərin daşıyıcıları dini ayinlərini bir yerdə icra edirlər, bir-birinə hörmətlə yanaşırlar.

Eyni zamanda, qarşıdan gələn Məhərrəm ayı və Aşura tədbirləri haqqında danışan Mübariz Qurbanlı bildirib ki, mərasimlər məscidlərdə və Qafqaz Müsəlmanları İdarəsinin fətvasına uyğun, qanun çərçivəsində, fətvada irəli sürülən tövsiyələrə riayət olunmaqla keçiriləcək. Bu və ya digər ayinlər həyata keçirilərkən qanuna əməl edilməlidir. Azərbaycan müsəlman dünyasının nümunəvi ölkəsidir. Bu mərasimlərdə xurafata heç bir halda yol verməmək olmaz.

Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi, Nardaran qəsəbəsi "Rəhimə xanım ziyarətgahı" məscidi dini icmasının sədri Musa Qasımov, "İmam Rza" məscidi dini icmasının sədri Əmirxan Tahirov dövlət başçısının dini icmalara dini maarifləndirmə və milli-mənəvi dəyərlərimizin qorunması ilə bağlı davamlı dəstək göstərməsini, dini ibadət yerlərinin təmiri və yenilərinin tikilməsini dövlətin dinə qayğısı kimi qiymətləndiriblər. Çıxış edənlər ölkədə dini maarifləndirmə işinin gücləndirilməsinin zəruriliyini vurğulayaraq, belə tədbirlərin təkcə dövlət-din münasibətlərinin inkişafına, dindarların maarifləndirilməsinə deyil, həmçinin ölkə dindarlarının dövlətə etimadının daha da artmasına xidmət etdiyini vurğulayıblar.

Sonda mövzu ətrafında müzakirələr aparılıb, dindarları narahat edən suallar cavablandırılıb.

Binəqədi Rayon İcra Hakimiyyətində keçirilən tədbiri giriş sözü ilə açan RİH-in başçısı Elxan Allahverdiyev respublikamızda mövcud olan dövlət-din münasibətləri, dinlərarası dialoq, dinlərarası tolerantlıq sahəsində həyata keçirilən dövlət siyasətindən bəhs edib. Qeyd edib ki, ulu öndər Heydər Əliyevin uzaqgörənliklə əsasını qoyduğu və bu gün möhtərəm Prezident İlham Əliyevin davam və inkişaf etdirdiyi dövlət-din münasibətləri sağlam prinsiplər üzərində qurulub. Ölkəmizdə gündəlik həyat tərzinə, milli-mənəvi dəyərlərimizin tərkib hissəsinə çevrilmiş tolerantlıq və multikultural dəyərlər bütün dünyada ən müasir və mütərəqqi cəmiyyət modeli kimi qəbul edilir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxış edərək dövlət-din münasibətlərinin dünyadakı modelləri, sovet dövründə İslam dininə yanaşma, müstəqilliyin bərpasından sonra Azərbaycan xalqının milli-mənəvi dəyərlərə qayıdışı prosesi, bəzi dairələrin İslam dininin ideoloji cəhətdən zəiflədilməsinə yönəlmiş fəaliyyətinə toxunub. Qeyd edib ki, milli-mənəvi dəyərlərin qorunması, eləcə də tolerantlıq anlayışı, multikultural ənənələrin təbliği və təşviqi Dövlət Komitəsinin dini maarifləndirmə istiqamətində gördüyü işlərin əsas istiqamətlərini təşkil edir. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş məqsədyönlü və uzaqgörən siyasi kursun bu gün də Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin sayəsində respublikamızda bütün dini konfessiyaların azad fəaliyyətinə tam şərait yaradılıb ki, bu da Azərbaycanı tolerantlıq baxımından dünyanın ən qabaqcıl ölkələri sırasına yüksəldir.

Mübariz Qurbanlı çıxışında dini radikalizmə və dini xurafata qarşı mübarizənin əhəmiyyətini və aktuallığını diqqətə çatdırıb və vurğulayıb ki, bütün problemlərin həlli dini mükəmməl şəkildə öyrənməkdir. Bu il də Məhərrəmlik mərasimlərinin Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurasının fətvasına uyğun keçirilməsi, qanvermə aksiyasının təşkil edilməsi planlaşdırılıb. "Yəni zəncir vurmaq, qan çıxarmaq, özünə xətər yetirmək kimi əməllər qəbul edilən deyil və bunlar sonradan meydana çıxan, uydurulmuş hərəkətlərdir. Biz də bu əməllərin əleyhinəyik. Qafqaz Müsəlmanları İdarəsi də bu cür çağırışlar edir",- deyə komitə sədri vurğulayıb.

Milli Məclisin deputatı Madər Musayev, Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Aygün Əliyeva, Qafqaz Müsəlmanları İdarəsinin Binəqədi rayonu üzrə səlahiyyətli nümayəndəsi Şahbala Əliməmmədov, rayon dindarları çıxışlarında xalqımızın mənəvi dünyasını zənginləşdirən, tariximizi və mədəniyyətimizi ucaldan, birliyimizi təmin edən milli-mənəvi dəyərləri qoruyub saxlamağın əhəmiyyətindən danışıblar. Qeyd olunub ki, milli dəyərlərimizin qorunması və inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün ümummilli lider Heydər Əliyevin yaratdığı müasir Azərbaycan onun siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə gələcəyə doğru inamla addımlayır. Ölkəmizdə dövlət-din münasibətləri yüksək səviyyədə qurulub və dindarlar hər zaman dövlətin maddi-mənəvi dəstəyini hiss edirlər. Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb.

## Fazil Mustafa: "İlqar Məmmədovun çıxışlarına hüquqi qiymət verilməlidir "



"Siyasətlə məşğul olan şəxs qətiyyən təhqirə yol verməməlidir. Tənqid bizdə azaddır və hətta qanunvericilikdə də, Konstitusiyada da bu nəzərdə tutulur. Amma təhqirə görə, Cinayət Məcəlləsində konkret maddələr var". Bunu SİA-ya açıqlamasında BQP sədri, millət vəkili Fazil Mustafa REAL partiyasının sədri İlqar Məmmədovun keçirdiyi mətbuat konfransında səsləndirdiyi fikirlərə münasibət bildirərkən deyib.

Onun sözlərinə görə, siyasətçilər etik davranış qaydalarına xüsusi əməl etməlidirlər: "Təhqirə yol verənlərə qarşı tədbirlər görüləndə bunu siyasi motivli təzyiqlər kimi qiymətləndirirlər. Amma çox vaxt özləri buna rəvac verirlər. Sanki hakimiyyəti məcbur edirlər ki, bunlara qarşı sərt tədbirlər görsün". Millət vəkilinin sözlərinə görə, İlqar Məmmədovun çıxışlarında təhqir varsa, buna hüquqi qiymət verilməlidir: "Bu gün Azərbaycan müxalifəti keyfiyyətcə fərqli bir platformada olmalıdır. Daha intelektual, daha mədəni və etik çərçivəni aşmadan hakimiyyətə də özünün proqramlarını, təkliflərini və hətta iradlarını, tənqidlərini də yönəltməlidir. Hesab edirəm ki, bu müxalifətçilik Azərbaycana daha çox fayda verər, nəinki, radikal, barışmaz və təhqirlə danışan müxalifət. Radikallıq həmin adamların özləri üçün yaxşı nəticə vəd etmir".

## "Zirvə görüşü türkdilli ölkələr arasında əlaqələri daha da gücləndirəcək"



"Azərbaycan bütün türkdilli dövlətlərlə geniş münasibətlərə malikdir". SİA-nın məlumatına görə, bu fikri YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri, Milli Məclisin deputatı Sevinc Fətəliyeva deyib.

S.Fətəliyeva bildirib ki, ümumilikdə Azərbaycan türk ölkələri arasında əlaqələrin daha da güclənməsinə maraqlıdır. Onun sözlərinə görə, Qırğızıstanın Çolpon-Ata şəhərində keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VI Zirvə görüşündə Prezident İlham Əliyev ölkələrimiz arasında əlaqələrin əhəmiyyətini xüsusi vurğulayıb. "Türk xalqlarını tarixi, milli, dini və mədəni köklər bir-birinə bağlayır. Bu səbəbdən də münasibətlərimiz dostluq və qardaşlıq prinsiplərinə əsaslanır. Azərbaycan Prezidenti İlham Əliyevin Qırğızıstana səfəri zamanı aparılan müzakirələr bu faktı bir daha təsdiqləyir. Vacib məqamlardan biri də odur ki, beynəlxalq müstəvidə də hər zaman türkdilli dövlətlər bir-birini fəal surətdə dəstəkləyir. Hesab edirəm ki, VI Zirvə görüşü türkdilli ölkələr arasında əlaqələri daha da gücləndirəcək"- deyə, S.Fətəliyeva vurğulayıb.

## Ölkəmiz Moskvada beynəlxalq sərgi-yarmarkada təmsil olunacaq



Sentyabrın 5-də Rusiyanın paytaxtı Moskvada 31-ci Beynəlxalq Kitab Sərgi-Yarmarkası keçiriləcək. Sentyabrın 9-dək davam edəcək sərgi-yarmarkada Mədəniyyət Nazirliyinin təşkilatçılığı və iştirakı ilə ölkəmizin mədəniyyəti, milli nəşrlər nümayiş olunacaq. Mədəniyyət Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan stendində ziyarətçilərə ölkəmizin tarixi, dövlətçiliyi, mədəniyyəti, elmi, Qarabağ həqiqətləri haqqında 150 addan çox nəşr məhsulu təqdim ediləcək. Sərgi çərçivəsində müxtəlif nəşriyyatlarla, digər aidiyyəti qurumlar və ədəbi, mədəni təşkilatlarla görüşlər də planlaşdırılır.

# Gənclərlə bağlı məqsədli proqramlar həyata keçirilir

*“Gənclər siyasəti dünyanın inkişaf etmiş dövlətləri tərəfindən yüksək qiymətləndirilməklə bərabər, öyrənilir və tətbiq edilir”*

***Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev gənclərin inkişafı, cəmiyyətdə fəaliyyətlərinin daha da genişləndirilməsi üçün onlara kreditlər ayrılması barədə Sərəncam imzalayıb. Bütün bunlar Azərbaycan dövlətinin, Prezidentinin gənclərə göstərdiyi yüksək dəyərin, diqqət və qayğının növbəti bariz nümunəsidir.***



Azərbaycan Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, fəlsəfə doktoru İlqar Orucov: **“Azərbaycanda həyata keçirilən gənclər siyasəti bir nümunədir”**

- Məlum faktdır ki, müstəqil Azərbaycanda gənclər siyasətinin təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Çox gərgin və dövlətçiliyimizin təhlükədə olduğu bir dövrdə, xalqın təkidi ilə hakimiyyətə gələn Heydər Əliyevin fəaliyyətinin böyük bir qismini dövlətin gələcəyi olan gənclərə, onların bütün mənalarda, sağlam yetişməsinə, müstəqilliyimizi etibar edə biləcək gənc nəslin formalaşmasına həsr etdi. Ulu Öndərin böyük uzaqgörənliklə, müdrikcəsinə təməlini qoyduğu, həyata keçirdiyi gənclər siyasəti qısa müddətdə uğurlu nəticələri ilə özünü təsdiq etdi. Bu siyasəti yeni məzmun və formada davam və inkişaf etdirən Cənab Prezident İlham Əliyev hakimiyyətə gələn ilk günlərdə gənclərin ən yaxın dostu olacağını, gənclərə etibar etdiyini və gənclərin də ona etibar etməsini arzuladığını ifadə etdi. 2003-cü ildən biz bu qarşılıqlı etimadın nəticələrini görməkdəyik və əminliklə deyə bilərik ki, Azərbaycanda həyata keçirilən gənclər siyasəti bir nümunədir. Bu siyasət model olaraq dünyanın inkişaf etmiş dövlətləri tərəfindən yüksək qiymətləndirilməklə bərabər, öyrənilir və tətbiq edilir. Gənclərlə bağlı məqsədli proqramların, konkret dövrləri əhatə edən strategiyaların, məhz gənclərin fikirlərinin, arzularının nəzərə alınmaqla qəbul edilməsi, gənclərin bütün pozitiv təşəbbüslərinin dəstəklənməsi, dövlətin bütün strukturlarında, hakimiyyətin bütün qollarında gənclərin təmsil olunması, gənclərin dövlət hesabına ölkəmiz üçün strateji əhəmiyyət kəsb edən ixtisaslarda dünyanın ən prestijli ali məktəblərində təhsil almağa göndərilməsi, dünyanın ən mötəbər, miqyasına görə ən böyük gənclər tədbirlərinin Bakıda keçirilməsi yuxarıda dediklərimizi bir daha təsdiq edir. Bir vaxtlar kiminsə xəyalına belə gələ bilməzdi ki, ölkədə gənclərin təşəbbüslərinin maddi tərəfdən dəstəklənməsi mümkün olsun. Amma biz beş il öncə, Cənab Prezidentin şəxsi təşəbbüsünün nəticəsi olaraq, Gənclər Fondunun yaradılmasının şahidi olduq. Artıq Azərbaycan Gənclər Fondu gənclər təşkilatlarının və fərdi gənclərin ideyalarını dəstəkləyən fəaliyyəti ilə dünyada analoqu olmayan bir təsisatdır. Biz dünyanın müxtəlif ölkələrində səfərlərdə olarkən, gənclər təşkilatlarının rəhbərləri və nümayəndələri ilə görüşərkən, onların Azərbaycanda həyata keçirilən unikal gənclər siyasətinə heyranlıqlarını ifadə etdiklərini görürük. Artıq əminliklə deyə bilərik ki, bütün sahələrdə ölkənin gələcəyini etibar edə, dövlətin yükünün altına çiyinləri davam gətirə biləcək gənclik formalaşmışdır. Bütün bunlar dövlətin sağlam gənc nəsil, güclü vətəndaş, etibarlı gələcək uğrunda illərlə atdığı məqsədli, ağıllı və düşünülmüş siyasətinin nəticələridir. Dövlət başçımızın gənclərin inkişafı, fəaliyyətlərinin genişlənməsi üçün onlara kreditlərin verilməsi ilə bağlı sonuncu Sərəncamı dövlətin gənclər siyasətinin davamlı olmasının və dövlətin hər zaman gənclərin yanında olduğunun göstəricisidir. Bu, həm də onu ifadə edir ki, dövlətin iqtisadi imkanları artdıqca, gənclərə qayğı və diqqət daha da artacaqdır. Gənclərin layihələrinin dəstəklənməsi onların məşğulluğunun təmin edilməsi istiqamətində də bir addımdır. Əminəm ki, gələcəkdə bu kreditlərdən istifadə edilərək, reallaşdırılan layihələr yeni iş yerlərinin yaradılması istiqamətində də konkret real nəticələrini verəcək. Hər bir Azərbaycan gənci, əmin ola bilər ki, dövlətin sosial siyasətində gənclərin çəkisi hər zaman nəzərə alınacaq, dövlətin gənclərə dəstəyi və qayğısı ən müxtəlif formada onların həyatında öz əksini tapacaqdır.

***GÜLYANƏ***

# “Azərbaycan və Rusiya liderlərinin səmimi münasibətləri ölkələrimiz arasında əməkdaşlığın inkişafına kömək edir”



Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya rəsmi səfəri və Prezident Vladimir Putinlə görüşü iqtisadi əməkdaşlığın prioritet istiqamətləri barədə Birgə Bəyanatın, habelə bir sıra mühüm sənədlərin, o cümlədən nəqliyyat, neft-qaz, idman, turizm, rəqəmsal sistemlər sahələrində sazişlərin imzalanması ilə başa çatdı. Prezidentlərimiz arasında gözəl şəxsi münasibətlər sonda bu müqavilələrə transformasiya edir.

RF Dövlət Dumasının Müstəqil Dövlətlər Birliyi məsələləri, Avrasiya İnteqrasiyası və Həmvətənlərlə Əlaqələr Komitəsinin sədri Leonid Kalaşnikov bu fikirləri AZƏRTAC-a müsahibəsində söyləyib. Rusiyalı deputat qeyd edib ki, iki ölkənin liderləri arasında səmimi dostluq münasibətləri əməkdaşlığın bütün istiqamətlərində əlaqələrin inkişafına kömək edir. Leonid Kalaşnikov vurğulayıb: “Deməliyəm ki, “quru” rəqəmlər və faktlar arxasında uzun illər boyu bizim münasibətlərimizdə təzahür edən səmimiyyət var. Mən Prezident İlham Əliyevi yaxşı tanıyıram və bilirəm ki, o, Rusiyaya çox səmimi münasibət bəsləyir. Bu həm də onda təzahür edir ki, Azərbaycanda rus dili təbliğ edilir, rus məktəbləri fəaliyyət göstərir. Mən özüm dəfələrlə həmin məktəblərdə olmuşam. Azərbaycanın necə inkişaf etdiyi, Bakının necə gözəlləşməsi göz qabağındadır. Mən heç yerdə belə gözəl Dənizkənarı Bulvar görməmişəm”.

Deputatın fikrincə, Rusiya və Azərbaycan bütün problemləri birgə həll edə bilərlər. O vurğulayıb: “Əlbəttə, Azərbaycanda da, bizim ölkədə də elə daxili və xarici problemlər var ki, onları birgə həll etmək, neft-qaz sahəsinin, turizm sahəsinin inkişafı üçün səyləri birləşdirmək lazımdır”.

Rusiyalı deputat Azərbaycanın turizm potensialının Rusiyada təbliğini gücləndirməyin vacibliyini qeyd edərək deyib: “Azərbaycandakı bəzi turizm obyektləri xarici ölkələrdəki kurortlarla müqayisədə qat-qat yaxşı və maraqlıdır. Mən heç gözləməzdim ki, Rusiyadakı kimi təbii şəraiti olmayan Azərbaycan qış turizmi sahəsində bu qədər irəliləyib. Mən tez-tez deyirəm ki, Azərbaycanın kurort potensialını rusiyalılar arasında daha çox təbliğ etmək lazımdır”.

L.Kalaşnikov parlamentlərarası münasibətlər mövzusuna toxunaraq qeyd edib ki, ölkələrimizin parlamentləri arasında praktiki dialoq nizamlanıb. Deputat deyib: “Bu yaxınlarda Rusiya parlament nümayəndə heyətinin Azərbaycana səfəri zamanı biz bir təklif irəli sürdük və həmin təklif Azərbaycan tərəfindən dəstəkləndi. Hazırda Azərbaycanda Rusiyanın ondan çox şəhəri ilə qardaşlaşmış şəhərlər var. Bu, regionlararası əməkdaşlığın genişlənməsi üçün yaxşı təməl yaradır. Biz Rusiya Dövlət Duması ilə Azərbaycan Milli Məclisi arasında yüksək səviyyəli parlamentlərarası komissiya yaradılması formatını da təklif etdik”.

L.Kalaşnikov ölkəmizin müasir inkişaf səviyyəsinə çatmasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rolunu xüsusi vurğulayıb. Deputat deyib: “Dünən mən “Zvezda” telekanalının “Yeri gəlmişkən” (“Mejdu tem”) verilişində çıxış edərkən Heydər Əliyevi nümunə göstərdim və prezidentin öz vədlərini necə yerinə yetirməli olması barədə danışdım. Heydər Əliyev xalqın təkidi ilə ölkə rəhbərliyinə qayıdanda Bakının küçələrində silahlı dəstələr qaynaşırdı, bütün oriyentasiya pozulmuşdu. Onda Heydər Əliyev dedi: “Mən qayda yaradacağam, hamı ilə razılığa gələcəyəm”. O, prezident olandan sonra həmin silahlı adamların yanına getdi, rus diasporunun və digər icmaların nümayəndələri ilə görüşdü. Deməliyəm ki, bu, bizim bu gün hakimiyyətdə olanların çoxu üçün örnəkdir - rəhbərin öz xalqına və öz dövlətinə necə münasibət bəsləməli, bütün xırda məqamları kənara ataraq xalq haqqında düşünməli olması barədə örnək. Mənim iş kabinetimdəki şkafda bir fotoşəkil var: mən, Gennadi Zuqanov və İlham Əliyev birlikdə çəkdirmişik. İlham Əliyevin dövlətə necə rəhbərlik etdiyini mən çox yüksək qiymətləndirirəm, ona uğurlar arzulamaq və onu əmin etmək istəyirəm ki, mən bir parlamentari kimi Azərbaycana kömək etməyə həmişə hazıram”.

# Paul Fişer: “Yeni yollar, binalar və bərpa olunan tarixi abidələr Naxçıvanda inkişaf edən infrastrukturdan xəbər verir”

***Ötən günlərdə Naxçıvan Muxtar Respublikasında səfərdə olan Böyük Britaniya vətəndaşı Paul Fişer ölkəsinə qayıtdıqdan sonra “Facebook” və “Instagram” sosial şəbəkələrindəki səhifələrində qədim diyar barədə məlumatlar paylaşıb.***

AZƏRTAC-ın Naxçıvan bürosunun verdiyi məlumata görə, Paul Fişer Naxçıvanın Nuh Peyğəmbərin vətəni olması ilə bağlı yazır: “Əfsanəyə görə, Nuh Peyğəmbərin gəmisi Ağrıdağı (Türkiyə ərazisində) istiqamətinə hərəkət edib, sonra Haçadağa dəyib və dağın qayalıq zirvəsində haça yaranıb. Naxçıvanın Nuh Peyğəmbərin vətəni olması iddia edilir. Şamın atasının ölümünü təsdiq edən bir çox məzarlardan biri də burada inşa olunub”.

Naxçıvan tarixinə nəzər salan əcnəbi qonaq daha sonra qeyd edir: “Naxçıvan xanlığı Cənubi Qafqazda müstəqil xanlıqlardan biri olub. Xan sarayı Naxçıvan şəhəri ərazisində inşa edilib. Bu növ tikililəri Şəki, Krım və Baxçasarayda görmək olar. Türkmənçay müqaviləsi Araz çayının sahillərində fars və rus imperiyalarının sərhədlərini müəyyənləşdirdi. Sonradan bolşeviklər Naxçıvanı Azərbaycanın əsas hissəsindən ayırdılar ki, Türkiyə ilə sərhəd əlaqələri kəsilsin. Zəngəzur kimi tanınan ərazi 1920-ci ildə bolşeviklər tərəfindən Ermənistana verildi. Bu fakt hazırda da böyük narazılıq yaratmaqdadır.

Naxçıvan tətbiq edilmiş ağır blokadadan əziyyət çəkib. Coğrafi mövqeyi baxımından Azərbaycanın əsas hissəsindən ayrı düşdüyü üçün Naxçıvanda elektrik enerjisi, su və ərzaq çatışmazlığı yaşanıb. Bu gün isə vəziyyət tam fərqlidir. Tikilən yeni yollar, binalar və bərpa edilən tarixi abidələr Naxçıvanda inkişaf edən infrastrukturdan xəbər verir. Bununla yanaşı, Haçadağa gedən yolda naxçıvanlılar yolun kənarında həyətlərində yetişdirdikləri məhsulları satırlar”.




Daha sonra Böyük Britaniya vətəndaşı növbəti paylaşımında yazır: “Bu il Azərbaycan Respublikası müstəqilliyinin 100 illiyini qeyd edir. Azərbaycan Respublikası müstəqilliyini SSRİ dağıldıqdan sonra yox, hələ ondan əvvəl Rus imperiyası dövründə elan etmişdi. 1918-1920-ci illərdə müsəlman Şərqində ilk parlamentli demokratik respublika Azərbaycanda qurulub. Azərbaycanda beynəlxalq seçki hüququ Amerika Birləşmiş Ştatları və Böyük Britaniyadan öncə tətbiq olunub. Bu respublikanın hökuməti öncüllük və dünyəviliyi ilə Azərbaycan daxilində çox yüksək rəğbət qazanmışdı. 1920-ci ilin aprelində bolşeviklər tərəfindən bu respublikanın müstəqilliyinə son qoyuldu”.

Qədim yurd yeri Qarabağlar kəndində olan qonaq kənddən fotoşəkillər paylaşaraq qeyd edir: “Bu şəkildəki Qarabağlar türbəsinin adını daşıyan sakit kənddir. Səmərqənd şəhərindəki Bibi xanım abidəsinin minarəsinə oxşayan minarələr son dövrlər təmir olunaraq əvvəlki vəziyyətinə qaytarılıb”.

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ MÜASİR SOSİAL-İQTİSADİ İNKİŞAFININ BAŞLANDIĞI TARİX - 3 SENTYABR

***Ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizdə müstəqillik yolunda haqlı mübarizənin başladılması, bütün regionlar kimi, muxtar respublikamızı da bir sıra sınaqlarla qarşı-qarşıya gətirsə də, xalqımızın Ümummilli Lideri böyük Heydər Əliyevin 1991-1993-cü illərdə muxtar respublikamıza rəhbərliyi ilə inkişaf, tərəqqi və intibah dövrünün əsasları qoyuldu. Həmin dövrlərdə istər bədnam qonşularımız ermənilərin torpaqlarımıza təcavüzü, istərsə də daxili siyasi qarşıdurmalar ölkəmizdə sosial və iqtisadi sahələrdəki islahatların aparılmasında maneə obyektinə çevrilmiş və bu, yeni bazar iqtisadiyyatının əsaslarının yaradılmasında çətinliklər törətmişdir. Nəticə isə, təbii ki, keçmiş İttifaqın siyasi və iqtisadi idarəetməsindən imtina edən müttəfiq ölkələr kimi Azərbaycanda və onun regionlarında yol xəritəsinin olmadığı bir vəziyyətlə müşayiət olundu. Belə bir şəraitdə Tanrının, bütövlükdə, xalqımıza nicat yolu kimi göndərdiyi böyük Heydər Əliyev 3 sentyabr 1991-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildi. Məhz bu, müasir müstəqillik illərində də ölkəmizin Naxçıvan Muxtar Respublikasından başlanan həm xilaskarlıq, həm də hərtərəfli inkişaf tarixinin başlanğıcı oldu.***

Bazar münasibətlərinin inkişafı sahəsində həyata keçirilən tədbirlər 3 sentyabr tarixinin böyük əhəmiyyətini bir daha göstərməkdədir. Çoxnövlü mülkiyyətə əsaslanan iqtisadi idarəetmənin səmərəli mexanimzlərinin təsis edilməsi, perspektivli kəndli-torpaq (aqrar) münasibətlərinin stimullaşdırılması, yeni iqtisadi şəraitə xas olan fəaliyyət mühitinin yaradılması və s. sahələrdə strateji mahiyyətli addımlar, məhz bu tarixdən atılmağa başlandı. 3 sentyabr ölkəmizdə yeni iqtisadi şərait üçün zəruri olan:

- bazar münasibətlərinə çevik şəkildə uyğunlaşan iqtisadiyyat quruculuğunu həm başlatdı, həm də bu sahədəki prosesləri sürətləndirdi;
- iqtisadi islahatlarla müşayiət olunan proseslərin üstün tərəflərini daha da aktuallaşdırmaqla, ümumilikdə, muxtar respublikanın hərtərəfli təhlükəsizliyinə təminat yaratdı;
- iqtisadiyyatın sosiallaşma meyilliliyinin nəzərdə saxlanıldığı tədbirlərin ardıcıllığı təmin edilmiş oldu;
- yeni iqtisadi şəraitə xas olan təsərrüfat formalarının yaradılması və fəaliyyətinin səmərəli təşkili sahəsində təkmil fəaliyyət ortaya qoyuldu;
- bugünkü mütərəqqi ideya və təşəbbüslərə əsaslanan sosial-iqtisadi inkişafın güclü bazasını formalaşdırdı və s. Təbii ki, bunlarla, nəinki ölkəmizdə, hətta MDB məkanında, ilk dəfə olaraq, həm müstəqillik illərində, həm də bazar münasibətlərinə əsaslanmaqla səmərəli iqtisadiyyata, sosial ədalətə doğru yol başlandı.

Tarixi və iqtisadi inkişafın müasir mərhələsində Naxçıvan Muxtar Respublikası



özünün davamlı və ardıcıl perspektivləri ilə daha böyük uğurların altından imza atmaqdadır. Bu gün, tam qətiyyətlə deyə bilərik ki, ölkəmizdə yaradılan makroiqtisadi inkişafın, iqtisadiyyatın sahə strukturu üzrə güclü təşkilatlanmanın, neft və qeyri-neft sektorlarının bir-birini təşkilatlandıran tərəqqisinin, səmərəli regional siyasətinin, hətta beynəlxalq iqtisadi proseslərin səmərəliliyi üçün zəruri olan kreativ ideya və təşəbbüslərin bazasında 3 sentyabrdan müdrikliklə başlanan çox güclü dövlətçilik siyasəti dayanmaqdadır.

3 sentyabr tarixi həm də Naxçıvan Muxtar Respublikasından bütün dünyaya verilən sülh və firavanlıq mesajlarından ibarət humanist dəyərlərin məcmusunu özündə yaşatmaqdadır. Bu qəhrəman torpaqdan bəyan edildi ki, ölkələrin ictimai-siyasi, sosial-iqtisadi, mədəni və digər sahələrdəki inkişafına doğru yönəlmiş yol, ərazinin kiçikliyindən asılı olmayaraq, başladıla bilər və bu, böyük əhəmiyyət daşımaqdadır.

Təminat qabiliyyətli iqtisadiyyata malik olması ilə artıq müəyyən edilən hədəflərə doğru qətiyyətlə addımlayan muxtar respublikamız ötən illərin çox mühüm strateji potensialını formalaşdırmaqdadır. Bu, bütün tərəflərilə yanaşı, həm də ölkə iqtisadiyyatının prioritetlərinə istiqamətlənib və 3 sentyabr tarixinin qürurverici məhsuludur. Bunun nəticəsində, Naxçıvan Muxtar Respublikası milli iqtisadi quruculuq proseslərində çevik şəkildə iştirak etmək imkanı əldə etmiş və hazırda da buna uğurla davam etməkdədir.

Son 23 ilə yaxın dövrdə daha da zənginləşdirilən bu potensial muxtar respublikada sağlam iqtisadi şəraitin yaradılması və qorunmasında strateji mahiyyət daşımış və uzaq gələcək üçün perspektivlər açmışdır. Nəticədə isə, müqavimətliliyə, dayanıqlılığa, çoxşaxəliliyə malik iqtisadiyyat qurulmuşdur. Statistik rəqəmlərə diqqət etməklə fikrimizi ifadə edə bilərik. Düşünülmüş makroiqtisadi siyasət nəticəsində, muxtar respublikada stimullaşdırıcı qüvvələr səfərbər edilmiş və bu, özünü əsas makroiqtisadi göstərici olan ümum daxili məhsulun həcmindəki təşkilatlanmada və strukturundakı inkişafda göstərməkdədir. Təkcə 2018-ci ilin yanvar-iyul aylarında muxtar respublikada yaradılan ÜDM-in həcminə baxdıqda, bunu açıq şəkildə görə bilərik. Belə ki, ötən yeddi ay ərzində muxtar respublikada 1 milyard 505 milyon 444 min 900 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə, 1,5 faiz çox olması ilə yadda qalmışdır. Həyata keçirilən tədbirlər burada iqtisadiyyatın sosial mahiyyətinin daha da yüksəldilməsinə xidmət etmiş və hər bir naxçıvanlının rifah göstəricisinə çevrilmişdir. Cari ilin ötən dövründə burada hər nəfərə düşən ümumi daxili məhsulun həcminin 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə, 2,4 faiz artaraq, 3318 manatı ötməsi fikrimizi təsdiqləyir.

3 sentyabr tarixindən başlanan iqtisadi və siyasi uğurlar muxtar respublika iqtisadiyyatı üçün pozitiv istiqamətlərin müəyyənləşdirilməsində mühüm rola malik oldu. İslahatlar aqrar sahədən başlanmaqla, səmərəli aqrar münasibətlərin inkişaf etdirilməsinə, kənd təsərrüfatı məhsullarının istehsalı sahəsində hüquqi və iqtisadi tənzimlənmənin həyata keçirilməsinə, xammal bazasının formalaşdırılması ilə yanaşı, eyni zamanda, iqtisadiyyatın digər sahələrinin inkişafına stimul verdi. Təbii ki, bu, sonrakı illərin daha güclü və daha etibarlı iqtisadiyyatı üçün hesablanmışdı. Artıq həmin məqsədyönlülük nəticəsində, bu gün muxtar respublika iqtisadiyyatının sahə strukturu mütərəqqi inkişaf yolu keçmiş və sənaye əhəmiyyəti artmışdır. Bu fakt özünü muxtar respublikada istehsal edilən ümumi daxili məhsulun tərkibində sənayenin ilk yerdə təşəkkül tapması ilə təsdiq etməkdədir. Ötən yeddi ayda muxtar respublikada istehsal olunan sənaye məhsulunun həcmi 621 milyon 450 min manat dəyərində olmuşdur ki, bu da keçən 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,6 faiz artıqdır. Sənayenin bu mövcud potensialı ölkənin sənayeləşmə siyasətinin perspektivliyinə güclü töhfədir.

3 sentyabrdan 1991-ci ildən ötən 27 illik dövrdə Naxçıvan Muxtar Respublikasında həm də böyük infrastruktur potensialı formalaşdırılmışdır. Bütün ərazilərdə ən müasir təminatlar özünə yer tapmış, bu isə, istehsal və sosial sahələrin inkişafının hərəkətverici qüvvəsinə çevrilmişdir. Elm, təhsil, səhiyyə, idman, tikinti və digər sahələrdə kök salan bu amil muxtar respublikanın şəhər və kəndlərinin müasir mənzərəsinin formalaşmasına səbəb olmuş və ən ucqar kəndlərdə belə təşəkkül tapmışdır. Yüksək vətənpərvərliklə həyata keçirilən inkişaf tədbirləri nəticəsində, muxtar respublikada 2018-ci ilin yanvar-iyul aylarında bütün maliyyə mənbələrindən əsas kapitala 579 milyon 300 min 400 manat vəsait yönəldilmişdir ki, bu da bir il önəcki göstəricidən 1,9 faiz çoxdur. Bütün sahələrdə səmərəli və məhsuldar fəaliyyətin təşkili məqsədilə əsas kapitala yönəldilmiş vəsaitin 549 milyon 804 min manatı və ya 94,9 faizi tikinti-quraşdırma işlərinə sərf edilmişdir.

Bu isə, muxtar respublikanın bütün regionlarında səmərəli infrastruktur potensialını yaratmışdır.

Muxtar respublikada səmərəli iqtisadi siyasət, digər aparıcı sahə olan kənd təsərrüfatının dinamik artımını təmin etmiş, bu isə, milli iqtisadiyyatın perspektivlərinə xidmət etməkdədir. Kənd yerlərində səmərəli fəaliyyətin təşkili, müxtəlif stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi və bu kimi amillər ucqar kəndlərdə istehsal sahəsindəki perspektivləri də artırmışdır. Nəticədə isə, kəndlərin iqtisadi inkişafının daha da sürətləndirilməsi sahəsində qətiyyətli yol keçilmişdir. Ailə təsərrüfatlarının yaradılması, kənd yerlərində ailə əməyinə əsaslanan fəaliyyətin təşkili və idarə olunması məsələləri bir tərəfdən aqrar sektorda məşğulluq potensialının artırılmasına təkan vermişdirsə, digər tərəfdən də, alternativ gəlir mənbələrinin yaradılmasına hərəkətverici təsir etmişdir. Kənd təsərrütafı məhsullarının istehsalçıları üçün texniki dəstəyin göstərilməsi, müxtəlif maliyyə resurslarına çıxış imkanlarının artırılması və müvafiq sahə üzrə tənzimləyici mexanizmlərin həyata keçirilməsi, bəhs edilən sahədə, məhsuldarlığın da yüksəldilməsinə öz töhfəsini vermişdir. Bunu cari ilin yanvar-iyul aylarında istehsal olunan 234 milyon 475 min 300 manatlıq kənd təsərrüfatı məhsulları da sübut etməkdədir. Qeyd edək ki, bu göstərici, ötən 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə, 3,7 faiz çoxdur. Təbii ki, bu uğurlar muxtar respublikanın malik olduğu iqtisadi imkanlardan səmərəli istifadə etdiyini də göstərməkdədir.

Bütün bunlar, bir daha onu göstərir ki, 3 sentyabr tarixindən başlanan dövlətçilik siyasəti Naxçıvan Muxtar Respublikasının timsalında, bütövlükdə, ölkənin makroiqtisadi gücünün daha da artmasına təkan vermişdir. 2004-cü ildən başlanan regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları, bütün regionlar kimi, muxtar respublikanın da sosial-iqtisadi həyatında davamlı irəliləyişlərin başlanması ilə müşayiət edilmiş və ayrı-ayrı sahələrin makroiqtisadi əhəmiyyətini artırmışdır. Eyni zamanda, bunlar müasir iqtisadi şəraitdə iqtisadiyyatın idarə olunmasında, onun çoxşaxəliliyinin təmin edilməsində, səmərəli və sağlam biznes mühitinin yaradılmasında, makroiqtisadi potensialın daha da gücləndirilməsini stimullaşdıran sahibkarlıq təşəbbüslərinin dəs-

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ MÜASİR SOSİAL-İQTİSADİ İNKİŞAFININ BAŞLANDIĞI TARİX - 3 SENTYABR



təklənməsində, yerli istehsalın həcminin artırılmasında, daxili imkanlardan düzgün istifadədə, idxalın məhdudlaşdırılmasında və nəticə etibarı ilə ixracyönümlü məhsul istehsalının gücləndirilməsində özünü göstərməkdədir. Təbii ki, bunlar Azərbaycan Respublikasının, onun regionlarının və xüsusən də, Naxçıvan Muxtar Respublikasının beynəlxalq iqtisadi münasibətlərin hərəkətverici qüvvəsinə çevrilməsində çox mühüm amil olmuşdur.

Artıq bu gün Naxçıvan Muxtar Respublikasında:

- istehsal prosesinin fasiləsizliyi və təminatqabiliyyətliliyi yüksək səviyyədə təmin edilmişdir;
- iqtisadiyyatın təkanverici qüvvəsi olan sahibkarlıq fəaliyyətinin təşfiqi və stimullaşdırılması sahəsində qətiyyətli dövlət siyasəti vardır;
- daxili bazarın qorunması, yerli məhsulların bazara çıxış imkanlarının səmərəli təşkilində qanunvericiliklə tənzimlənmə həyata keçirilməkdədir və s.

Şübhəsiz ki, bütün bunlar muxtar respublikada qətiyyətli sosiallaşma proseslərini daha da sürətləndirmişdir. Nəticədə isə, burada 382 növdə məhsul istehsal olunur ki, bunun da 126 növü ərzaq, 256 növü isə qeyri-ərzaq məhsullarıdır. Nəzərdə tutulan məqsədlərə, müəyyən edilən hədəflərə doğru inamlı addımların atılması muxtar respublikada əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatının tamamilə yerli imkanlar hesabına ödənilməsini təmin etmişdir. Bu, muxtar respublikanın sosial-iqtisadi inkişafının qürurverici təsdiqidir. Eyni zamanda, bu, milli iqtisadi inkişafda səmərəliliyin yüksəldilməsi istiqamətində muxtar respublikanın çəkisinin daha da artmasına şərait yaratmışdır. Məhz 3 sentyabr bütün bu uğurların, əsrin dörddə birindən çox olmaqla, qərinəyə qədər keçdiyi inkişaf yolunun hamar olduğunu bir daha ifadə etməkdədir. Çünki burada hədəflər, məqsədyönlülük, etibarlılıq, təcrübə, iradə və qətiyyətlilik var və Naxçıvan Muxtar Respublikası bu yüksək dəyərlərlə inkişaf yolunu davam etdirməkdədir.

İqtisadiyyatın müqavimət gücünün artması, onun böhranlar qarşısındakı dayanıqlığını da gücləndirməkdədir. Bu isə, onun ixrac imkanlarının daha da genişlənməsinə təkan olmaqdadır. Ölkələrarası iqtisadi-istehsal münasibətlərinin gücləndirilməsi nəticəsində, yaradılmış əlverişli mühit muxtar respublikanın dünyaya çıxışını asanlaşdırmış və faydalılığını artırmışdır. Artıq bu gün muxtar respublikamız dünyanın 65-ə yaxın ölkəsi ilə iqtisadi ticarət əlaqələrini davam etdirməkdədir. Əldə edilən uğurlar isə Xarici Ticarət Dövriyyəsinin həcmindəki artımla müşayiət edilməkdədir. Belə ki, cari ilin ötən dövrü ərzində 249 milyon 147 min 700 ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. Qeyd edək ki, həmin göstəricidə ixracın həcmi 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə artaraq, 221 milyon 145 min 500 ABŞ dolları təşkil etmişdir. Ötən illər üzrə əldə olunan dinamika qorunaraq, istehsal imkanlarının təşfiqi sahəsində strateji tədbirlər həyata keçirilmiş və nəticədə, 193 milyon 143 min 300 ABŞ dolları dəyərində müsbət saldo yaranmışdır. Əlbəttə ki, mövcud potensial Naxçıvan məhsullarının həm də dünya ölkələri üçün cəlbediciliyini göstərməkdədir.

Beləliklə, Naxçıvan Muxtar Respublikası hərtərəfli inkişafı ilə milli iqtisadi quruculuq proseslərinin daha da sürətlənməsinə öz töhfələrini verməkdədir ki, bu da öz sosial, iqtisadi, tarixi və hətta siyasi başlanğıcını 3 sentyabrdan götürməkdədir. Keçilən yola nəzər saldıqda, bir daha aydın olur ki, Naxçıvan Muxtar Respublikası bu potensialla həm özünün davamlı inkişafında qətiyyətlidir, həm də ölkənin makroiqtisadi hədəflərinə doğru etibarlı addımlar atmaqdadır.









**Cavadxan QASIMOV,**
***iqtisad üzrə fəlsəfə doktoru, dosent***

# Azərbaycanın multikulturalizm nümunəsi dünyaya örnəkdir

***Amerika Sefard Federasiyasının icraçı direktoru Ceyson Qubermanın rəhbərlik etdiyi nümayəndə heyəti Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin qonağı olub. Mərkəzdən qəzetimizə verilən məlumata istinadən, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktor əvəzi Rəvan Həsənov amerikalı qonaqlara BBMM-in fəaliyyəti, həyata keçirilən layihələr və ölkəmizdə uğurla davam etdirilən multikultural mühit haqqında ətraflı məlumat verib.***



Rəvan Həsənov bildirib ki, Prezident İlham Əliyev multikulturalizmin qorunub-saxlanmasına böyük önəm verir. Azərbaycanda tolerantlıq mühitinin hazırkı səviyyəyə gəlib çatması dövlətimizin başçısının apardığı siyasətin, dinindən, dilindən və milli mənsubiyyətindən asılı olmayaraq, hər bir vətəndaşımıza bərabər münasibətinin nəticəsidir. Multikulturalizm Azərbaycanda dövlət siyasəti və həyat tərzidir. Azərbaycan öz multikultural və tolerant yaşam tərzi ilə dünyaya nümunədir. O, qeyd edib ki, Azərbaycan dövlətinin həyata keçirdiyi tolerantlıq siyasəti ölkəmizdə yaşayan etnik və dini icmalar arasında dostluğun və qardaşlığın daha da möhkəmlənməsinə zəmin yaradır. Bütün bunlar Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu siyasətin uğurla davamının nəticəsidir.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktor əvəzi təmsil etdiyi qurumun fəaliyyət istiqamətlərindən də danışıb. Diqqətə çatdırıb ki, azərbaycançılıq məfkurəsinə uyğun olaraq tolerantlığın və mədəni, dini, linqvistik müxtəlifliyin qorunmasını təmin etmək, eləcə də, Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq və mövcud multikultural modelləri tədqiq və təşviq etmək mərkəzin əsas məqsədidir. Amerikalı qonaqların diqqətinə çatdırılıb ki, bu gün Azərbaycan multikulturalizmi fənni dünyanın iyirmiyə yaxın universitetində tədris olunur. BBMM-in doqquz ölkədə filialı var.

Amerika Sefard Federasiyasının icraçı direktoru Ceyson Quberman rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri çərçivəsində bir sıra qurumlarda, eləcə də, bölgələrdə yaşayan yəhudi icmasının nümayəndələri ilə görüşlər keçirəcəklərini, ölkəmizdə mövcud olan multikultural mühit, xalqımızın tolerantlıq ənənələri ilə yaxından tanış olmaq arzularını bildirib. Qeyd edib ki, Azərbaycan multikulturalizminin fənn kimi dünya elm ocaqlarında tədris edilməsi təqdirəlayiqdir və bu iş davam etdirilməli, müxtəlif xalqların, dini konfessiyaların birgəyaşayış mədəniyyəti bütün dünyaya çatdırılmalıdır. O, Azərbaycandakı müxtəlif dini icmaların sıx əməkdaşlığının və dostluğunun təqdirəlayiq olduğunu vurğulayıb. Bildirib ki, Azərbaycan öz nümunəsi ilə digər ölkələri həvəsləndirir və onun təcrübəsinin istifadə olunması zəruridir.

**ZÜMRÜD**

## "Rusiya Prezidenti Qarabağ münaqişəsinin tezliklə həll olunmasında maraqlı tərəf olduğunu qeyd etdi"

*- Eldəniz müəllim, Azərbaycan Prezidenti Cənab İlham Əliyevlə Rusiya Prezidenti Vladimir Putin arasında Soçidə keçirilən görüş iki ölkə arasında əlaqələrin inkişafı baxımından, önəmini necə şərh etmək olar?*



**Müsahibimiz millət vəkili Eldəniz Səlimovdur**

- Azərbaycan ilə Rusiya arasında möhkəm dostluq və əməkdaşlıq ənənələrinin təməli müasir müstəqil Azərbaycanın banisi olan Ulu Öndər elə təməl üzərində qoymuşdur ki, bu, günü-gündən inkişaf edir və daha da möhkəmlənir. Azərbaycan Prezidenti İlham Əliyevlə Rusiyanın Prezidenti Cənab Putin arasında Soçidə keçirilən işgüzar səfər bu iki ölkə arasında əlaqələrin daha da inkişaf etməsinə, möhkəmlənməsinə faydalı tərəfdaşlığın inkişafına və bir-birinin mənafelərinə hörmət etməyə xidmət edir. Ölkəmizin stabil və sabit ölkə olması iqtisadiyyatının bütün sahələrdəki inkişafı Rusiyanın ölkəmizə müxtəlif sahələrə sərmayə qoymasına şərait yaradır. Bu görüş nəticəsində, imzalanmış sənədlər hər iki ölkənin mənafeyini qorumaqla, gələcək inkişaflarına böyük töhfə verəcək. Bu görüşlərin məqsədi iki qonşu ölkə arasında ikitərəfli münasibətlərin və qarşılıqlı iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsinə xidmət edəcəkdir.

*- Görüşdə Dağlıq Qarabağla aparılan müzakirələrdə də Vladimir Putin münaqişənin həllində Rusiyanın maraqlı olduğunu bəyan edib. Bu, nəticə etibarı ilə Rusiyanın, nəhayət, münaqişənin həllində qətiyyət göstərməsində bir vasitə ola bilərmi?*

- Görüş zamanı regionun təhlükəsizlik məsələlərindən, o cümlədən, Dağlıq Qarabağ münaqişəsi haqqında müzakirələr aparılmış, Rusiya prezidenti Qarabağ münaqişənin tezliklə həll olunmasında maraqlı tərəf olduğunu qeyd etmişdir. Dəfələrlə iki ölkə rəhbərinin görüşləri zamanı Dağlıq Qarabağ məsələsi ilə bağlı məsələlər müzakirə olunmuş, Rusiya ATƏT-in Minsk Qrupunun bir həmsədri kimi, bu münaqişənin sülh yolu ilə həlli üçün öz mövqeyini bildirmişdir. Həyata keçirilən bu işgüzar səfərlərin nəticəsi olaraq, belə qənaətə gəlmək olur ki, Möhtərəm Prezidentimizin səyi nəticəsində, Rusiyanın Azərbaycana münasibəti müsbətə doğru xeyli dəyişilmişdir.

*- Rusiya prezidenti Vladimir Putinlə Azərbaycan Prezidenti İlham Əliyev arasında baş tutan yüksək səviyyəli görüş Ermənistanda çox təşviş və narahatçılıqla qarşılanıb. Bunun səbəbini nə ilə izah etmək olar?*

- Azərbaycanla Rusiya prezidentləri arasında keçrilən görüşlər həmişə Ermənistanı təşvişə salır. Son vaxtlar isə bu münasibətlərin artan templə inkişafı onları daha çox narahat edir. Ölkə iqtisadiyyatının sürətli inkişafı Ermənistanı daha çox narahat etməklə, siyasi tərəfdaş axtarışına çıxmasına səbəb olub. Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin nəticəsində, Ermənistan bütün beynəlxalq layihələrdən kənarda qalıb. Bunun nəticəsidir ki, Ermənistanda iqtisadi və siyasi böhran genişlənib. Ölkəmiz ötən əsrin 90-cı illərində Rusiyadan daha çox idxala meyilli idisə, bu gün ölkəmiz ixraca daha çox meyillidir. Bütün bunlar, Ermənistanı narahat etməyə bilməz. Güclü iqtisadiyyata malik ölkənin qüdrətli ordusu mövcuddur. Bu hal da, Ermənistan hökumətini və əhalisini təşvişə salır.

**GÜLYANƏ**

## Rusiya hökuməti Azərbaycanla saziş layihəsini bəyənib



Elektrikötürücü xətlər və boru kəməri vasitəsilə keçirilən mallar üzərində gömrük nəzarəti haqqında Azərbaycanla sazişin layihəsi Rusiya hökuməti tərəfindən bəyənilib. AZƏRTAC RF Hökumətinin saytına istinadla xəbər verir ki, neftin, təbii qazın və elektrik enerjisinin ixracı və idxalı zamanı gömrük rüsumlarının və dövlət büdcəsinə digər yığımların hesablanmasının nizamlanması haqqında Moskva ilə Bakı arasında sazişin layihəsi bəyənilib. Saytda dəqiqləşdirilir ki, saziş layihəsi iki ölkə arasına iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın 2016-cı il dekabr ayında Bakıda keçirilmiş XVI iclasının yekunlarına əsasən gömrük işi sahəsində ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə hazırlanıb.

Məlumatda deyilir: "Saziş imzalanacağı təqdirdə onun reallaşdırılması elektrikötürücü xətlər (elektrik enerjisi) və boru kəməri (neft, təbii qaz) ilə keçirilən malların gətirilməsi və ya aparılması zamanı tutulan gömrük rüsumlarının, vergilərin və digər yığımların düzgün hesablanmasını təmin edəcək".

## Dövlət Komitəsində məcburi köçkünlərlə növbəti görüş olub



Sentyabrın 4-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində məcburi köçkünlərlə növbəti görüş keçirilib. Bu barədə AZƏRTAC-a Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən məlumat verilib. Dövlət Komitəsinin sədri, sədr müavinləri, şöbə və departament rəhbərlərinin iştirak etdiyi görüşdə Bakı şəhəri və digər bölgələrdən gələn məcburi köçkünlərin müraciətlərinə baxılıb. Müraciətlər, əsasən, mənzil-məişət, kommunal, statusun verilməsi və məşğulluqla bağlı olub. Komitə sədri onları fərdi qaydada dinləyib, müraciətləri ilə bağlı geniş izahat verilib.

Məcburi köçkünlərə məlumat verilib ki, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması hər zaman Prezident İlham Əliyevin diqqət mərkəzindədir. Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə bu istiqamətdə ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. Məcburi köçkünlərə göstərilən diqqət və qayğının nəticəsidir ki, onlar müvəqqəti yaşayış yerləri və çadır düşərgələrindən müasir, bütün zəruri infrastrukturu qurulmuş qəsəbələrə köçürülüblər. Prezident İlham Əliyevin rəhbərliyi ilə ərazilərimiz işğaldan azad edildikdən sonra bu cür qəsəbələr həmin ərazilərimizdə də salınacaq. Dövlət Komitəsinin sədri müraciətlərin qısa müddətdə araşdırılacağını və müvafiq tədbirlər görüləcəyini bildirib.

## Türkiyənin Gəncəyə təyin edilmiş yeni baş konsulu patent sənədini Xarici İşlər Nazirliyinə təqdim edib

Xarici İşlər Nazirliyinin Dövlət Protokolu İdarəsinin rəisi səfir Pərvin Mirzəzadə Türkiyə Cümhuriyyətinin Gəncə şəhərinə təyin edilmiş yeni baş konsulu Zəki Öztürk ilə görüşüb. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüş əsnasında Zəki Öztürk baş konsul təyinatı ilə əlaqədar patent sənədini Pərvin Mirzəzadəyə təqdim edib.



Pərvin Mirzəzadə Zəki Öztürkə gələcək fəaliyyətində uğurlar arzu etdi. Görüşdə Azərbaycan ilə Türkiyə arasında mövcud dostluq və qardaşlıq münasibətləri, bu əlaqələrin daha da inkişaf perspektivləri barədə geniş fikir mübadiləsi aparılıb.

# İlqar Məmmədov-saxta "qəhrəman" obrazı

*"REAL" partiyasının sədri İlqar Məmmədov azadlığa buraxılandan bir neçə gün sonra necə deyərlər, susqunluğunu pozdu, ancaq necə...*



***Elə ilk mətbuat konfransındaca daxilində formalaşmış bəlli simptomlar üzə çıxdı - "hazırkı qərarla razı deyilik", "tam qələbə üçün sona qədər gedəcəyik" və s. və i...***

Ən anlamaz insanda belə, müəyyən hisslər mövcud olur ki, həmin hisslərdən biri də həyatında baş verən hər hansı bir olaydan sonra şükür etməkdir. Ancaq belə görünür ki, İ.Məmmədovda nəinki imana etiqad, heç öz inamına da etiqadı yoxdur. Yəni, nə iman, nə də inam hissi "REAL" adlı partiyanın sədrində ümumiyyətlə, mövcud deyil. Bu baxımdan, onun qeyri-reallığı keçirdiyi ilk konfransdaca üzə çıxdı.

### 3 hissəli mətbuat konfransı Hindistan melodramına belə çevrildi...

İndi isə keçək əsas mətləbə. O mətləbə ki, İ.Məmmədov ona ünvanlanan suallara cavab verməklə, özündən saxta qəhrəman düzəltməyə çalışdı. Ətrafına yığdığı və biri o birilərinə, o biriləri də birinə dəyməyən vəkilləri ilə siyasi artistizm yapan Məmmədov özünün cəmiyyət üçün maraqlı olmadığını yaxşı bildiyi üçün, 3 hissəyə ayırdığı (???-R.N.) konfransının birinci hissəsini keyfiyyətsiz Hindistan melodramları kimi "ağlamalinski" üslubuna həsr etdi. "Həbsimin illərini vərəqləyək", deyib, dad-aman elədi ki, nə qədər "əzablar" çəkib, hətta vəkillərindən biri olan Cavad Cavadov da, demə, bir "mələk" təki onun "həyatda qalması" üçün "çalışdı". Görünür, həmin vəkil heç də hüquqşünas-filan deyil, həkimiymiş, sadəcə sənətini səhv salıb və işini-gücünü "İlqar Məmmədovun həyatda qalmasına həsr edibmiş"...

### İlqar Məmmədovla Tale Bağırzadəni tərəzinin eyni gözündə görənlər də tapıldı və bu da təəccüblü görünməməlidir

Əslində, kifayət qədər istehza doğuran bu ifadələrin "REAL" sədri tərəfindən deyilməsi onun qeyri-real "siyasətçi" olduğunu bir daha təsdiq edir. Özü də həbsinin əsas səbəblərini gizlədə-gizlədə onu qəsdən siyasiləşdirərək, guya prezident seçkilərində iştirak qərarına görə baş verdiyini iddia etdi. Hər halda, özünü siyasətçi adlandıran kəs bu qədər ucuz fikirlərlə ictimai rəydə özü haqqında bədbin rəy formalaşdırmaz!

Ümumiyyətlə, həbsinin digər tərəfini iqtisadiyyatla da əlaqələndirən İ.Məmmədovun bu və ya digər şəkildə dediyi gülünc iddiaları, həmçinin, AXCP və Müsavat partiyaları ilə əməkdaşlıqda maraqlı olmadığını sərgiləməsi, eləcə də Nardaran hadisələrinin əsas təşkilatçısı Tale Bağırzadənin təbrikinə görə verdiyi səfeh və anlaşılmaz cavabı İ.Məmmədovun nə qədər ucuz bir fərd olduğunu kifayət qədər sübuta yetirmiş oldu. Hətta bir anlıq İ.Məmmədovla T.Bağırzadəni tərəzinin eyni gözündə görənlər də tapıldı və bu da təəccüblü görünməməlidir. Biri İsmayıllıda, o biri də Nardaranda qeyri-sağlam düşüncəli bir qrup kütləni legitim hakimiyyətə, hüquqi dövlətə qarşı qaldırmağa cəhd edib və bununla da olublar "qəhrəman"...

Lakin ən gülünc məsələ onun hakimiyyətlə debata hazır olması fikirləridir ki, bu gün hakimiyyətin istənilən sadiq təmsilçisi İ.Məmmədovla debata getməyə hazırdır. Həmin debat isə həbsindən sonra özü ətrafında saxta qəhrəman obrazı yaradan bir qeyri-real siyasətçinin siyasi məhvi olar. Görünür, Məmmədov azadlığa adaptasiya olunana qədər, hətta sonra da bu cür səhvlər buraxıb, özünü çətin vəziyyətdə qoyacaq. Bundan isə hər kəs əmin ola bilər, elə İ.Məmmədovun özü də...

***Rövşən NURƏDDİNOĞLU***

***P.S. İlqar Məmmədov hakimiyyətlə debata getmək barədə fikirləşməkdənsə, radikal düşərgədə ona qarşı planlaşdırılan AXCP-"Milli Şura", yaxud Müsavat və s. təşkilatların hücumlarının qarşısını necə alacağı barədə düşünsün. Hər şey ola bilər, hətta bir də gözünü açıb-görər ki, Əli Kərimli ya da qeyri müxalifət "liderləri" onu elə bir tələyə salıblar ki...***

## Araz Əlizadə: "İlqar Məmmədovun başını ABŞ səfirliyində xarab ediblər"



"Əslində "REAL"ın sədri İlqar Məmmədov hər kəs kimi normal insan idi. Sonradan AMİP-ə getdi, oradan isə Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfirliyinə işə düzəldi. Onun başını ABŞ səfirliyində xarab ediblər". Bunu SİA-ya açıqlamasında ASDP sədri, millət vəkili Araz Əlizadə deyib. Onun sözlərinə görə, İ.Məmmədov bundan sonra istəsə belə, normal addım ata və fikir söyləyə bilməz: "O artıq müəyyən şəxslərin və qüvvələrin təsiri altındadır. Bundan sonra müxtəlif pozucu addımların atılmasına təhrik ediləcək. Amma nə edirsə-etsin nəticə əldə edə bilməyəcək. Çünki, cəmiyyət radikalları qəbul etmir".

## "Bu fakt İlqar Məmmədovun dövlətə qarşı qərəzli mövqedə durduğunu sübuta yetirir"



"Bütün hallarda Azərbaycan dövləti tərəfindən nümayiş olunan humanizmə qarşı adekvat olmayan mövqenin sərgilənməsi, eyni zamanda tamamilə ədalətsiz, heç bir fakta söykənməyən mülahizələrin sürülməsi yolverilməzdir". Bunu SİA-ya siyasi şərhçi Elçin Mirzəbəyli İlqar Məmmədovun Azərbaycan dövlətinə qarşı səsləndirdiyi fikirlərə münasibət bildirərkən deyib.

Onun sözlərinə görə, bu faktın özü bir daha İlqar Məmmədovun dövlətimizə qarşı münasibətdə nə qədər qərəzli mövqedə durduğunu sübuta yetirir.İlqar Məmmədovun keçirdiyi mətbuat konfransında həbs olunması ilə bağlı səsləndirdiyi iddiaların tamamilə absurd olduğunu dilə gətirən E.Mirzəbəyli söyləyib ki, sözügedən şəxs elə bir siyasi çəkiyə malik olan fiqur deyil ki, mövcud hakimiyyətə hər hansı bir formada təhlükə yaratsın: "İlqar Məmmədovu tanıyan insanlar onun bu günə qədər cəmiyyətə konseptual fikir təqdim etdiyinin şahidi olmayıb. O, sadəcə olaraq, boğazdan yuxarı mülahizələr səsləndirməklə yadda qalıb".

Siyasi şərhçi qeyd edib ki, İlqar Məmmədov klub çərçivəsinə daxil olan siyasətçidir: "Yəni məhdud çərçivədə fəaliyyət göstərmək potensialına malik olan siyasət adamıdır. Onun böyük siyasətə heç bir aidiyyatı yoxdur. Bu baxımdan İlqar Məmmədovun hər hansı iddialarla çıxış etməsi gülüncdür. İlqar Məmmədov heç bir uğura imza atmaq gücündə və potensialında deyil".

# Leyla Yunus kitab üzərində işləyir

*"O, bu məqsədlə beynəlxalq donorlardan 60 min avro qonorar aldığını da gizlətmir"*



***Son vaxtlar xaricdə mühacir həyatı yaşayan siyasiləşmiş QHT-lərdən olan Xədicə İsmayıl, Leyla Yunus, Arif Yunus, Emin Milli, Emin Hüseynov və bu kimi şəxslər arasında bir-birinə qarşı qarşılıqlı ittihamlar genişlənib. Sual olunur: nə baş verir, dünən bir-birinə dəyər və dəstək verənlər, bu gün biri-birindən üz çevirirlər? Söhbət etdiyimiz müsahiblərimiz qarşıdurmanın yaranmasının səbəbini mövqe uğrunda aparılan savaş olduğunu bildirdilər.***

### Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, Sağlam İnkişaf və Maarifləndirmə İctimai Birliyinin sədri Anar Xəlilov: **"Bu işə Leyla Yunus başçılıq edirdi"**

Bu şəxslər arasında qarşılıqlı ittihamlar tez-tez təkrarlanır. Mən bu barədə əvvəllər də açıqlamalarımda qeyd etmişəm ki, bunların bir məqsədi var, o da maliyyə əldə etməkdir. Bu gün də baş verən bu qarşılıqlı ittihamların kökündə, məhz bu, dayanır. Əvvəllər bunlar birgə hərəkət edərək, bəzi anti-Azərbaycan mövqeli beynəlxalq təşkilatların yanında mövqe tutaraq, onlardan aldıqları qrantlar vasitəsilə maliyyələşirdilər. Bu işə isə Leyla Yunus başçılıq edirdi. Aldıqları maliyyəni aralarında bölə bilmədiklərindən, yaranan konfliktlərin dəfələrlə şahidi olmuşuq. İndi isə ayrı-ayrılıqda hər biri həmin təşkilatlardan maliyyə mənbəyi kimi istifadə etmək qərarına gəliblər. Fakt olaraq bunların bir-birindən fərqli verdikləri hesabatları misal göstərmək olar. Hesab edirəm ki, bu hallar bunların, konkret olaraq, iç üzlərini bir daha açaraq, ortaya qoyur. İctimaiyyət bunların kim olduqlarını görür və qiymətlərini verir. Bu insanların xalqı, dövləti yox, öz mənafelərini güdmələri, bir daha təsdiqlənir. Bunların verdikləri hesabatların və etdikləri çıxışların yalan və qərəz olduğu sübuta yetirilir.

### ADİM-in sədri, Avrasiya İA-nın baş redaktoru Cavid Şahverdiyev: **"Anti-Azərbaycan yönümlü donor təşkilatlarına Leyla Yunus kimi satqınlar doğmadır"**

Adlarını çəkdiyiniz QHT sədrləri bir vaxtlar Avropada anti-Azərbaycan yönümlü donor təşkilatlardan böyük məbləğdə qrantlar alıb, dövlət və dövlətçiliyimizin əleyhinə müxtəlif formalarda layihələr həyata keçiriblər. Bu adamların davası həmişə qrant üstündə olub. Özlərini "hüquq müdafiəçisi" və "demokrat" adlandıranların bir-birinə qarşı ən kəskin ittihamlar səsləndirdiklərini zaman-zaman müşahidə etmişik. Dünənə qədər bir süfrədən çörək yeyib, eyni qabdan su içən "müttəfiqlər" sonradan düşmənə çevriliblər. Bu düşmənçilik də onların iç üzlərini cəmiyyətə açıb göstərir. Özlərini "demokrat", "hüquq müdafiəçisi" adlandıranların əsas məqsədi Avropadakı donar təşkilatlardan pul qoparmaqdır. Niderlandda olan Leyla Yunus Azərbaycanda siyasi məhbus problemi ilə bağlı kitab üzərində işləyir. O, bu məqsədlə beynəlxalq donorlardan 60 min avro qonorar aldığını da gizlətmir. Onun bank hesabında milyonlar var. Bu adamlar Azərbaycanın düşmənləridirlər, hansı ki, vaxtilə eyni qədə, fikir və pul onları bir-birlərinə mehribanlaşdırmışdı. Arif və Leyla Yunuslar, həmçinin, Xədicə İsmayıl "Xalq diplomatiyası", "Milli barışıq" adlı qrant layihələrinin iştirakçısı olublar. Onların iştirakçısı olduqları layihələr "regionda sülh naminə" Naxçıvan və digər Azərbaycan torpaqlarının da Ermənistana ilhaq edilməsində hər hansı problem olmadığından bəhs edib. Aparılan monitorinqlər göstərir ki, Ermənistan KİV-dəki son yazılarda Azərbaycana qarşı bu kampaniyada Ermənistan və diasporun məğlubiyyəti "təəssüf və məyusluq" hissi ilə etiraf edilir. Onlar, həmçinin, Avropa Oyunları ilə əlaqədar bəzi Qərb dairələrinin Azərbaycana qarşı apardığı kampaniyanı daha da fəallaşdırmağa çağırıb. Xatırladaq ki, oyunların başlanmasına bir neçə gün qalmış Amerika Erməni Milli Komitəsinin rəhbəri daşnak Aram Hamparyan Avropa Oyunlarını boykot etməklə bağlı canfəşanlığı ilə seçilib... Dünənə qədər onları pul mehribanlaşdırmışdı, bu gün yenə də pul onları bir-birlərinə qənim kəsilməyə məcbur edib. Dava da elə pul üstündədir. Bir-birlərini gözdən salmaq, kələk gəlmək, paxırlarının üstünü açmaqdan ötrü min oyunlardan çıxırlar. Emin Hüseynovun son zamanlar "Meydan" TV-nin rəhbəri Emin Milli, Leyla Yunus və Xədicə İsmayıla qarşı maliyyə vəsaitlərini mənimsəməkdə, satqınlıqda və xəyanətkarlıqda ittiham etməsinin arxasında başqa faktlar gizlənir. O faktlar qarşılıqlı ittihamlar əsnasında ictimaiyyətə çatdırılacaq. Bunun özü yaxşı bir haldır. Azərbaycan cəmiyyətinə onların kimliyi və hansı amala və məqsədə xidmət etdikləri məlumdur. Aramızda vətəninə qara yaxanlara yer yoxdur, Avropa onlara qucaq açsa, qoy orada da davalarını davam etdirsinlər. Avropanın anti-Azərbaycan yönümlü donor təşkilatlarına Leyla Yunus kimi satqınlar doğmadır.

***GÜLYANƏ***

# Ermənistan mediası Paşinyan hökumətini “baltalamaqda” davam edir

*Küçədən gələn baş nazirin çatışmayan cəhətləri üzünə vurulur*

***Nikol Paşinyan Ermənistandakı hakimiyyəti ələ aldıqdan sonra, düşdüyü acınacaqlı vəziyyət, xüsusilə, erməni mediası tərəfindən bu və ya digər dərəcədə araşdırılır. Beləliklə, küçədən hakimiyyətə gələn baş nazir ağır tənqidlərə məruz qalmaqda davam edir. “Past” qəzeti yazır ki, son günlər cüzi də olsa iqtidardakı rıçaqlarını əldə saxlayan Respublika Partiyası müxtəlif tədbirlərdə iddia edirlər ki, Paşinyan şantaj və təhdid yolu ilə baş nazir seçilib.***



Daha dəqiq desək, Respublika Partiyasının üzvlərini Paşinyanın namizədliyinə səs vermək üçün, məhz bu yolla məcbur ediblər. “Məlum olmağa başlayır ki, bu kimi iddialar elə-belə səsləndirilmir” deyə yazan “Past” qəzetinə görə, adıçəkilən partiyada belə bir inkişaf ssenarisi müzakirə edilir: “Paşinyan bir neçə aydan sonra sosial problemlər yükü altında küçə dəstəyini itirəcək. Respublika Partiyasının parlament fraksiyası bundan istifadə edərək, imzatoplama kampaniyasına başlayacaq və Konstitusiya Məhkəməsinə müraciət edəcək ki, Paşinyanın hakimiyyətə gəlişi Ana Yasa qanunlarının pozulması kimi qiymətləndirilməlidir. Belə ki, Respublika Partiyasının üzvləri xalq kütləsinin qisası və şantaj təhlükəsi altında səs verməyə məcbur olublar”.



Erməni nəşri, həmçinin, qeyd edir ki, Nikol Paşinyanın hələ də müxalifətçilik ritorikası ilə çıxış etməsinə səbəb də, məhz bu amildir. “O, bu vasitə ilə ictimai dəstəyi uzun müddət saxlayacağına ümid edir” deyə “Past” yazır.

## “Erməni polisi kütləvi şəkildə işlərini tərk edir”

Bu arada, adıçəkilən qəzet növbəti nömrəsində digər probleme toxunur. Belə ki, son vaxtlar Ermənistanın polis sıralarını tərk edənlərin sayı artmaqda davam edir və get-gedə kütləvi hal alır. Qəzet yazır: “Bizdə olan məlumatlara görə, polis rəisi Valeri Osipyan polisin müxtəlif strukturlarını şəxsən gəzərək, getmək istəyənlərə bu sistemi demontaj etməməyə və polis sıralarını tərk etməməyə çağırır”. Qəzetə görə, məsələ ondadır ki, polisə “əlavə gəlir” əldə etmək qadağası qoyulub, az məvacib alan polislər isə, bu qədər cüzi maaşla işləmək istəmirlər. Çünki ailələrini dolandıra bilmirlər.

**Ermənistan polislərini işğal olunmuş ərazilərimizdəki səngərlərə, ön xəttə göndərirlər ki, bu amil də onların ciddi etirazlarına səbəb olub**

“Xüsusilə, yol polisləri belə bir situasiyada işləməkdən imtina edirlər” deyə yazan “Past” qəzeti onu da qeyd edir ki, Ermənistanda maaş artımı gözlənilmir: “Hətta gələn ildə də polislərin maaşlarının artırılması gözlənilmir. Sistemdə seyt-not vəziyyəti yaranıb. Osipyan isə gələcəkdə nəyin-necə olacağına aydınlıq gəlməyənə qədər hər kəsi işləməyə çağırıb”.

Yeri gəlmişkən, erməni polisinin cüzi məvacibə görə iş yerlərini tərk etməsi onların separatçı “DQR”ə postlara göndəriləcəyi ilə də əlaqələndirmək olar. Belə ki, son vaxtlar Paşinyan hökuməti bununla bağlı qərar qəbul edib və Ermənistan polisləri işğal olunmuş ərazilərimizdəki səngərlərə, ön xəttə göndərilirlər ki, bu amil də onların ciddi etirazlarına səbəb olub. Hər halda, fakt budur ki, ölkədəki digər sistemlərlə yanaşı, hüquq-mühafizə orqanları sistemi də çökməkdə davam edir.

## “Hraparak”: “ABŞ-da yaşayan erməni icması Paşinyanı Amerika senatoru Con Makkeynin ölümü ilə bağlı başsağlığı vermədiyinə görə ittiham edib”

Bu arada, Nikol Paşinyan hökuməti, daxili böhranla bacarmadığını sübut etməklə yanaşı, xarici siyasətində də çatışmayan faktorlar üzə çıxmaqdadır. Məsələ ondadır ki, artıq ABŞ-da yaşayan erməni diasporu baş nazirin səhvlərini üzünə vurur. Məsələn, “Hraparak”ın yazdığına görə, ABŞ-da yaşayan erməni icması Paşinyanın Amerika senatoru Con Makkeynin ölümü ilə bağlı başsağlığı vermədiyinə görə ittiham edib. Halbuki Makkeyn uzun illər ABŞ Senatında erməni lobbisinin maraqlarından çıxış edib. Bunu erməni icması da etiraf edib: “İcma, Ermənistan da daxil olmaqla, hər zaman Makkeynə müraciətlər edib və onun dəstəyini görüb. O, iki dəfə Ermənistanı ziyarət edib və hər zaman erməni məsələsini Senatda qaldırıb və dəstəkləyib”.

## ABŞ-ın erməni icması: “İcma hesab edir ki, Ermənistan hakimiyyətinin başsağlığı teleqramı vurması faktı ciddi siyasi səhvdir”

“Hətta Makkeyn ailəsinin dəfn mərasiminə dəvət etmədiyi Tramp Ağ Ev üzərindəki dövlət bayrağının iki gün müddətinə aşağı salınması ilə bağlı sərəncam verib” deyə yazan “Hraparak” erməni icmasının bəyanatından bir parça ictimailəşdirib: “İcma hesab edir ki, Ermənistan hakimiyyətinin başsağlığı teleqramı vurmaması faktı ciddi siyasi səhvdir və bu, erməni icmasının respublikaçılarla gələcəkdə iş qurmasına xələl gətirəcək. Yeri gəlmişkən, Con Makkeyn Azərbaycanda aşırı ermənipərəst siyasət adamı kimi tanınıb”.

Beləliklə, Nikol Paşinyanın istər daxili, istərsə də xarici siyasət baxışları onun naşılığını növbəti dəfə ortaya qoymaqdadır. Xüsusilə, aparıcı erməni nəşrlərinin onun tənqidini sərt şəkildə aparması artıq erməni ictimaiyyətində ona qarşı itən etimadın yüksəlməsinə işarə edir.

**R.NURƏDDİNOĞLU**

# Sabiq Ombudsman da Paşinyanı tənqid etdi

*Larisa Alaverdyan: “Bu kimi açıq-aşkar bəyanat administrativ resursdan sui-istifadədir”*

***Ermənistanın birinci Ombudsmanı Larisa Alaverdyan Yerevan şəhər merliyinə “Mənim addımım” (baş nazir Nikol Paşinyanın siyasi çevrəsi bu blokda birləşib-R.R.) blokundan olan namizədi Ayk Marutyanın çıxışında bir sıra risklərin olduğunu deyib. Larisa Alaverdyan “aysor.am”-ın müxbirinin suallarını cavablandırarkən, seçki kampaniyasının başlamadığı halda, ictimaiyyət, artıq bəyanatlar eşidir ki, bu hal qanun normaları ilə yanaşı, insan hüquqlarını da kobud şəkildə pozur: “Xüsusilə, Ayk Mautyanın dəfələrlə tənqidlərə məruz qalan ifadələrinə müraciət etsək, bir məsələni qeyd edə bilərəm: beynəlxalq təcrübədə hər şey ağa və qaraya bölünür və burada ağ - yaxşı kimi, qara isə-pis, yəni irqçilik kimi xarakterizə olunur. Mən hazırkı kontekstdə bir neçə gün sonra seçkiqabağı kampaniyaya qoşulacaq insanları işlədəcəkləri ifadələrində diqqətli olmağa səsləyirəm”.***

Larisa Alaverdyan Ayk Marutyanın “bizim komandamıza qarşı oyun ola bilməz” fikirlərinə də münasibətini bildirib və qeyd edib ki, bu kimi ritorikalar, artıq Ermənistan üçün bağlı səhifədir.

## “Bu, bütöv bir xalqın bir güc vasitəsilə identifikasiyasıdır”

“Xatırlatmaq istərdim ki, bu ritorika dəfələrlə tənqidlərə məruz qalıb və son vaxtlar istifadə olunmurdu” deyən sabiq erməni Ombudsmanı hazırda bənzər fikirlərin yenidən eşidildiyini bildirib: “Belə çıxır ki, yeni güclər ədalətli seçkinin deyil, çoxluq olmağın tərəfdarı kimi çıxış edirlər. Bu, çox təhlükəli tendensiyadır. Başqa təhlükə də var - bu, bütöv bir xalqın bir güc vasitəsilə identifikasiyasıdır”.

Larisa Alaverdyan baş nazir Nikol Paşinyanın açıq şəkildə “Mənim addımım” blokuna dəstək verəcəyi barədə bəyanatını da qəbuledilməz hesab etdiyini bildirib: “Bu kimi açıq-aşkar bəyanat administrativ resursdan sui-istifadədir”.

***Rövşən RƏSULOV***

# Qanunsuz yolla ölkəyə gətirilən külli miqdarda xəz geyim aşkarlanıb



Gömrükçülər külli miqdarda xəz geyiminin qanunsuz yolla ölkə ərazisinə gətirilməsi cəhdinin qarşısını alıb. Dövlət Gömrük Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Hava Nəqliyyatında Baş Gömrük İdarəsinə xəz geyimlərinin Türkiyədən qaçaqmalçılıq yolu ilə Naxçıvan Muxtar Respublikasına, oradan isə hava nəqliyyatı vasitəsilə Bakı şəhərinə gətirilməsi haqqında əməliyyat məlumatı daxil olub. Bu məlumat əsasında, Naxçıvan-Bakı aviareysi ilə gələn yükü qarşılayan Azərbaycan vətəndaşı Cehrun Əliyev gömrük əməkdaşları tərəfindən nəzarətə götürülüb. Vətəndaş həmin aviareyslə gələn baqajı qəbul edərkən saxlanılıb. Üç ədəd qutu və iki ədəd çantadan ibarət olan baqaj yoxlanılarkən cəmi 64 ədəd müxtəlif etiketli xəz kürklər aşkarlanıb. Faktla bağlı araşdırma aparılır.

# "AXCP və Müsavat belə görüşlərdən qaçırlar"

## *Mais Səfərli: "Onlar ümummilli maraqlara deyil, öz qrup maraqlarına xidmət edirlər"*

***- Mais bəy, iqtidar-müxalifət dialoqunun növbəti dəfə keçirilməsi planlaşdırılırmı?***

- Azərbaycanda demokratik ab-hava var. Yəni ölkəmizdə çoxpartiyalı sistem mövcuddur. Bir sözlə, Azərbaycan demokratik- hüquqi dövlət kimi bütün dövlətlər tərəfindən dəyərləndirilir. Bu gün Azərbaycan postsovet məkanında bu məsələlərdə bir örnəkdir. Hər zaman demokratik dövlətlərdə iqtidar-müxalifət arasında təmaslar və dialoq olur, yəni ümummilli məsələlər ətrafında müzakirələr aparılır. Amma təəssüflər olsun ki, Azərbaycan müxalifətinin tutduğu mövqe və ölkə müxalifətinin bu illər ərzində sərgilədiyi davranış belə dialoqların baş tutmasına imkan verməyib. Demək olar ki, görüşlər nadir hallarda olub. İntensiv görüşlərin baş verməməsinin səbəbi dağıdıcı müxalifət liderlərinin tutduqları qərəzli və qeyri-konstruktiv mövqe ilə bağlıdır.

***- Hər dəfə AXCP və Müsavat bu cür görüşlərdə iştirak etməkdən imtina edir. Bu təkəbbür, bu iddia nə ilə bağlıdır?***



**Müsahibimiz "Yurddaş" partiyasının sədri Mais Səfərlidir**

- Bu gün adıçəkilən partiyaların əsas fəaliyyətləri Azərbaycanın davamlı inkişafına mane olmaq, hakimiyyətə qarşı qara yaxmaqdan ibarətdir. Onlar cəmiyyətin dəstəyindən tamamilə məhrum olduqlarına görə, məhz bu cür anormal mövqe tutublar. Müxalifət təmsilçiləri özlərini elə bir günə qoyublar ki, heç kəs onlarla təmas qurmaq istəmir. Demək olar ki, müxalifət partiya sıralarında olan şəxslər də, artıq bu partiyaları tərk edib gediblər. Bu da liderciklərin əsassız iddialarından və fəaliyyətsizliklərindən irəli gəlir.

***- Müsavat və AXCP-nin belə görüşlərdə iştirak etməməsi o anlamı yaratmırmı ki, sözügedən partiyalar xalqdan ayrı düşmüş təşkilatlardır?***

- Çoxpartiyalı sistem demokratiyanın göstəricisidir. Bu gün bu Azərbaycanda var. Təbii ki, belə bir şəraitdə hər zaman iqtidar- müxalifət partiyaları arasında təmasların olması, dialoqun olması çox zəruridir. Xüsusilə də, ümummilli məsələlər ətrafında müzakirələr aparmaq vacibdir. Bildiyiniz kimi, bu gün Azərbaycan müharibə şəraitində olan bir ölkədir. Torpaqlarımızın bir hissəsi işğalçı Ermənistan tərəfindən işğal olunub. Belə olan halda, elə hesab edirəm ki, belə dialoqların davamlı olması zəruridir. Amma gördüyünüz kimi, hər zaman AXCP və Müsavat belə görüşlərdən yayınırlar. Bu da, o deməkdir ki, bunlar ümummilli məsələlərin müzakirəsindən qaçırlar. Deməli, ümummilli məsələlərin müzakirəsindən qaçırlarsa, onda onlar ümummilli maraqlara deyil, öz qrup maraqlarına xidmət edirlər.

**GÜLYANƏ**



# Həyasız xarici törəmə nökərləri...

**RƏFİQƏ**

***Xarici nökərlərin törəmələri deyən kimi, dağıdıcı düşərgə sakinləri anlayırlar ki, kimlərdir. 25 ildir ki, bu törəmələr qrant savaşına çıxaraq, bir-birilərinə qurşaqdan aşağı zərbə vururlar. Belə olan halda, əgər xarici törəmələrin nökərləri əgər siyasi sahədəki fəaliyyətlərində bu günə kimi bir uğura imza ata bilməyiblərsə, nə səbəbdən, fəaliyyətlərini dondurmurlar? Əslində, yerində verilən sualdır. Çünki sualın bu tipdə qoyuluşu özündə bir sıra amilləri ehtiva edir. Onlar ötən əsrin sonunda cəmi-cümlətani bir dəfə hakimiyyət sükanının arxasına keçdilər və bircə ilə ölkə iqtisadiyyatını, daxili və xarici siyasətini çökdürdülər. Bundan sonra "Davam, yoxsa tamam" sualının cavabı "Tamam!" olmalı idi. Amma...Olmadı!***

Əslində, bunun səbəbi də məlumdur. Artıq bu illər ərzində müxalifətçilik lüzumsuz vərdişə çevrildi və bu pis vərdiş də yavaş-yavaş iş və ya fəaliyyət növünə, yəni peşə xəstəliyinə çevrilib. İndi başbilən müxalifətçilər onu istəsələr də, dayandıra bilməzlər. Çünki müxalifətçilər və onların "liderləri" hər hansı bir iş görmək qabiliyyətini itiriblər. Yəni əllərindən yalnız boşboğazlığa söykənən müxalifətçilik gəlir. Təbii ki, onları bu mərəzə yoluxduran qüvvələr bu gün də var. Onlar daxili və xarici törəmələrin nökərləri olaraq, "tarix" yazıblar. İsa Qəmbər, Əli Kərimli, Pənah Hüseyn, İqbal Ağazadə, Arif Hacılı, Fuad Qəhrəmanlı, Emin Hüseynli, Bəxtiyar Hacıyev, Leyla Yunus, Xədicə İsmayıl... kimi fərdlər...

Xarici qüvvələrin qərəzi isə daxilindəkindən qat-qat artıqdır. Çünki biri yalnız cəfəng ideya ixrac etdiyi halda, o biri nəqd qrant ixrac edir. Bu qrantlar isə yeyildikcə-yeyilir. Özü də iqtisadi cinayətlər hesabına! Tutulanda da, deyirlər ki, bəs bizi siyasi motivlərlə həbs ediblər. Xarici qrantpaylayanlar isə, çəkirlər donlarını başlarına və o ki var, döşəyirlər Azərbaycanın milli dövlətçilik maraqlarına...

## Ortada əsaslı faktor yoxdur

Yəqin indi aydın oldu ki, bu cür mərəzə, xəstəliyə yoluxan ənənəvi müxalifətçilər nə səbəbə bu gün də öz kreslolarından bərk-bərk yapışıb-qalıblar. Bəs pulları kim qazansın? Əlbəttə ki, yalnız özləri qazanmalıdırlar. Hətta tutulsalar belə, onların pul-paralarının ardı-arası kəsilməməlidir. Ona görə də, "Demkonqres"dən "SİDSUH"a, "SİDSUH"dan "DSİ"yə, "DSİ"dən "MKM"ə "MKM"dən "İctimai Palata"ya, "İctimai Palata"dan "Milli Şura"ya atlana-atlana gedirlər. Amma ortada əsaslı faktor yoxdur. Sadəcə, qrant və maliyyələrin gəlirindən başqa...

Artıq sonrasının nə olacağı bəllidir. İsa Qəmbər bu gün Müsavatı dağıdıb və hadisələri kənardan izləyir, Əli Kərimli də eyni vəziyyətdə "Yurd"u ilə əlləşir. Nə yaxşı olardı ki, onlar elə əlləşməkdə qalsınlar. Çünki üzü buyanlıq onların heç nəyi qalmayıb. Hətta onlara üzü oyanlıqdırlar desək, lap yerinə düşərdi...

# Emin Milli Əli Kərimlini "şəxsiyyəti bəlli olmayan nadürüst" hesab edir

## *Siyasiləşmiş QHT-lərlə müxalif partiyalar arasında uçurum dərinləşir*

***Dağıdıcı müxalif düşərgədə yeni qarşıdurmalar yaşanır. Budəfəki qalmaqalın mərkəzində xaricdə Azərbaycan əleyhinə aparılan kampaniyaların əsas fiqurlarından olan Emin Milli, Leyla Yunus və Xədicə İsmayıdırsa, başqa bir cinahda dağıdıcı ünsürlərin əsas siması hesab olunan AXCP sədri Əli Kərimli, Müsavat başqanı Arif Hacılı və yenicə azadlığa çıxan "REAL"ın sədr İlqar Məmmədovdur.***

Son vaxtlar daha gərgin xarakter alan qarşıdurmalar bir məsələni özündə ehtiva edir: eyni mərkəzdən idarə olunan və eyni qazandan qidalanan xaricdəki və daxildəki müxalif ünsürlər qrant əldə etmək məsələsinə görə bir-birindən üz çeviriblər. Soyuq münasibətlərin çərçivədən çıxmasının əsas səbəblərindən biri də, önə çıxmaq və xarici ağalarının diqqətini özlərinə cəlb etməyə çalışmaqdır. Bir zaman Ə.Kərimlinin dirijor çubuğu ilə idarə olunan "Meydan" TV-nin rəhbəri Emin Milli açıq şəkildə Ə.Kərimlini və onun ətrafında olanları "şəxsiyyətləri bəlli olmayan nadürüstlər" adlandırıb. Bildirib ki, onlar sosial şəbəkələrdə saxta profillər açaraq, insanların şərəf və ləyaqətini təhqir edirlər.

### Leyla Yunus da Əli Kərimlidən üz döndərib

İş o yerə çatıb ki, E.Milli xaricdə düzənlənən müxtəlif tədbirlərdə Ə.Kərimlinin və onun ətrafında olanların ünvanına sərt ittihamlar irəli sürür. Amerika Konqresinin Helsinki Komissiyasının keçirdiyi brifinqdə E.Milli Ə.Kərimlinin sədrlik etdiyi AXCP-nin marginallaşdığını, cəbhəçilərin heç bir işə yaramayan faydasız varlıqlar



olduğunu bildirib. E.Milli xalqın marginallaşmış müxalifətdən imtina etdiyini qeyd edərək, İsa Qəmbəri, Arif Hacılını, İ.Məmmədovu aşağılayan ifadələr səsləndirib. O, çıxışında əlində olan faktlar əsasında Ə.Kərimlinin qorxaq olduğunu sübut etməyə çalışıb: "İcazəsiz aksiyalara Əli Kərimli çağırış edir, amma özü aksiyalara gəlmir. Çünki orada insanlar həbs oluna bilər. Necə ola bilər ki, partiyanın lideri olasan, insanlara çağırış edəsən, amma özün meydanlara gəlməyəsən? Bu, necə ola bilər axı? Özü gəlməlidir. Əli Kərimli icazəsiz aksiya keçirməyə qorxur ki, birdən şalvarını əynindən çıxararlar, şapalaq vurarlar, başına iş gətirə bilərlər".

Maraqlıdır ki, X.İsmayıl, Leyla Yunus və digər "hüquq müdafiəçi"ləri E.Millinin Ə.Kərimli haqqında söylədiklərinə haqq qazandırıb, onu dəstəkləyiblər. L.Yunus açıq şəkildə bildirib ki, müxalif düşərgədə partiyalararası əlaqələrin pozulmasında Ə.Kərimlinin öz maraqlarına hesablanan açıqlamaları xüsusi rol oynayır: "Hadisələr göstərdi ki, Azərbaycan müxalifətinə inanmaq olmaz. Ə.Kərimli, A.Hacılı və digərləri, ancaq öz mənafelərini düşünürlər. Bu isə, yolverilməzdir". X.İsmayıl isə, cəbhəçilərin E.Millini hədəf seçərək, sosial şəbəkələrdə onun haqqında təhqiramiz ifadələr yazmalarını yaramazlıq adlandırıb: "Marginal sözünü Emin Milli yox, Audrey Alştadt deyibmiş. Hərçənd, kimin deməsindən asılı olmayaraq, bu, həqiqətdir. İndi iki gündür ki, Emini mütəşəkkil hücuma məruz qoyan cəbhəçilər yazdıqları təhqirlərə görə, üzr istəyəcəkmi? Bu arada, Cəmil Həsənli də ilk ittiham yazanlardan biri olub. Səadət Cahangir, İradə Nəriman iki gündür, adamı atəşə tutmusuz, postlarınızın altında xeyli təhqir yazılıb. Məsuliyyətli siyasətçilər, aktivistlər nə edər belə durumda"?

### Acınacaqlı vəziyyətdə olan Əli Kərimli kömək üçün xarici ağalarına müraciət edib

Proseslər göstərir ki, düşərgə daxilində AXCP sədri Ə.Kərimli daha çox ittiham olunur. İttihamların əsaslı olması və faktlara söykənməsi Ə.Kərimlini, həlli mümkün olmayan problemlər məngənəsində sıxılmasına gətirib çıxarıb. Bütün bunlar Ə.Kərimliyə yaxşı heç nə vəd etmir. Əksinə, xarici qrantverən təşkilatlar tərəfindən əqidədaşları ilə yola getməmək ittihamına tuş gəlir. Bu halda, xaricdən ayrılan maliyyə yardımları dayandırıla bilər ki, bu da Ə.Kərimli üçün siyasi intihar deməkdir. Odur ki, ortağı Qənimət Zahiddən kömək istəyib. "Yurd" şefi vasitəçinin imkanları və köməyi hesabına xarici ağaları ilə yaranmaqda olan soyuqluğu aradan qaldırmağa çalışır. Ancaq bu gün Q.Zahid öz başının hayına qaldığından, çətin ki, Ə.Kərimlinin problemlərinin həllinə yardımçı olsun. Sadəcə, söz verəcək, sifarişlərin lazımi ünvanlara çatdırılması isə mümkün olmayacaq. Deməli, Ə.Kərimlini növbəti fəlakət və zillət gözləyir. Əslində, belə də, olmalıdır. Məsəl var, deyərlər, "nə əkərsən, onu da biçərsən". Zamanında dostlarına, əqidə yoldaşlarına, başlıcası, lider dediyi Əbülfəz Elçibəyə müxtəlif "torba"lar tikən Ə.Kərimli bu gün yaşatdıqlarını yaşamağa məhkum olub.

**İ.ƏLİYEV**

# İsa Qəmbər Arif Hacılını necə çıxdaş edir

*Yaxud Müsavatın növbəti qurultayı öncəkindən daha qalmaqallı keçəcək*

***Müsavat partiyasının hələ 2014-cü ildə keçirilən qalmaqallı qurultayında baş verən məlum qalmaqallı hadisələr və qurultaydan sonra yaranan istefalar dalğası bu gün də siyasətlə maraqlanan tərəflərin müzakirə obyektində qalmaqdadır. Parçalanmış və hazırda da didişmələrlə yadda qalan Müsavat partiyası isə get-gedə siyasi iflasına doğru daha sürətlə irəliləməkdədir. Belə ki, bu yaxınlarda partiyanın saxta yollarla seçilmiş başqanı Arif Hacılı mətbuata müəmmalı açıqlamasını verərkən, üstüörtülü fikirləri ilə nə qədər çətin durumda olduğunu nümayiş etdirib.***



### Arif Hacılı özünə inanmır

Məsələ ondadır ki, partiyanın bu ilin sonlarında keçiriləcək qurultayına hazırlıqla bağlı açıqlama verən A.Hacılı deyib ki, qurultayın gününün təyin edilməsi hazırlıq işlərinin gedişindən asılıdır və s. Məhz bu açıqlamadan da, bəlli olur ki, əslində, partiyadaxili qarşıdurmalar gərgin vəziyyətdədir və qurultay gününün təyin edilməsi belə ciddi problemə çevrilib. Halbuki A.Hacılı bu və ya digər şəkildə rəhbəri olduğu partiyasının qurultay gününü bir iclas keçirməklə müəyyənləşdirə bilər. Sadəcə, partiyadaxili münasibətlərdə funksionerlərin fikirlərinin üst-üstə düşməməsi həmin problemi daha da qabartmış olur.

Başqa bir tərəfdən maraqdoğurucu görünən daha bir məqam A.Hacılının "Partiyanın növbəti qurultayında namizədliyinizi irəli sürəcəksinizmi" sualından yayınmasıdır. Belə ki, "Namizədliyin irəli sürülməsi mərhələsi irəlidədir", deyən Müsavat başqanı bu dəfə özünə inamının olmadığını dolayısı ilə etiraf edib. Hətta Hacılı başqanlığa namizədliyini irəli sürəcəyini desəydi, ya da başqa bir namizədin adını açıqlasaydı belə, yenə də bu inamsızlığını büruzə verəcəkdi.

Artıq Müsavata yaxın kuluarlarda, belə bir fikir də formalaşmağa başlayıb ki, sabiq başqan İsa Qəmbər A.Hacılını bu postdan çıxdaş etməyə hazırlaşır. Çünki 2014-cü ildəki qurultayda Qubad İbadoğlunu, Vurğun Əyyubu, Səxavət Əlisoyu, Ellada Məmmədlini, Hikmət Hacızadəni və başqa köhnə müsavatçı funksionerləri, başqan müavinlərini və müşavirləri A.Hacılıya qurban verməklə, nə qədər səhv iş tutduğunu anlamağa başlayıb. Hacılı isə, söz yox ki, İ.Qəmbərin ümidlərini doğrulda bilməyib.

### Ellada Məmmədli: "Qurultaydan sonra belə bir nəticəni gözləməyən keçmiş başqan uzun illər onun tərəfdarı olmuşlara "xəyanətkar və iqtidara işləyənlər" damğasını vurdu"

Bu gün Q.İbadoğlunun sədri olduğu və demək olar ki, tərkibi köhnə müsavatçılardan ibarət olan "ADR" hərəkatının funksioneri, Müsavatın qadınlar şurasının sabiq sədri Ellada Məmmədli də, hesab edir ki, İ.Qəmbər A.Hacılını başqanlığa saxta yollarla təyin edərkən, əslində, öz "siyasi nüfuzunu" qorumağa çalışıb, hətta 2018-ci ilin sonlarına qədər keçirilməsi gözlənilən qurultayda özünü başqanlıq kreslosuna kökləyib.

"İsa Qəmbər başqanlıqdan gedəndə, Müsavatın parçalanacağını hesablamamışdı. O düşünürdü ki, Müsavat partiyasındakı insanların hamısı onun tərəfdarlarıdır və dediyi sözlər, birmənalı olaraq, hər kəs tərəfindən qəbul ediləcəkdir" deyən E.Məmmədlinin sözlərinə görə, Müsavatdan, məhz İ.Qəmbərin yaxın çevrəsi, ona sadiq olanlar getdilər və yaxud da onu dinləməyənlər partiyadan xaric olundular: "Partiyadan gedənlər elə İ.Qəmbərin tərəfdarları oldu. Qurultaydan sonra belə bir nəticəni gözləməyən keçmiş başqan uzun illər onun tərəfdarı olmuşlara "xəyanətkar və iqtidara işləyənlər" damğasını vurdu. Bu da illərini partiyaya həsr edən insanlara vurulan damğa, onu dinləməyənlərin "cəza damğası" idi. Ona görə də, A.Hacılının Müsavatda qalması və ya getməsi, artıq heç nəyi həll etmir. Dünənə kimi A.Hacılını günahkar bilənlər, bu gün elə düşünmürlər. Ona bu qədər səlahiyyəti verən kimdir? Təbii ki, 22 il partiyaya başqanlıq etmiş İ.Qəmbər".

### İsa Qəmbər başqanlığa namizəd olaraq, iddiasını ortaya qoymaqla, Arif Hacılı klanını özünə qarşı qaldıracaq

Ellada Məmmədli, onu da qeyd edib ki, siyasətin öz qanunları var: "Bəzi hallarda liderlər müsbət və mənfi xüsusiyyətlərinin həyata keçirilməsi üçün bəzi şəxslərdən istifadə edirlər: "Dünənə qədər Müsavatı xaricdə təmsil edən Qubad İbadoğlunun xidmətləri, birmənalı olaraq, onun başqanının adına yazılırdı ki, baxın İ.Qəmbərin ətrafında necə ziyalılar toplaşıb. O cümlədən, professor Adil Qeybullanın, professor Almaz Əliqızının, Hikmət Hacızadənin, Vurğun Əyyubun və adını çəkmədiyim bir çox ziyalının xidmətləri Müsavat başqanının adına yazılırdı. Ona görə də, əvvəllər hər kəs İ.Qəmbəri yaxşı tərəfdən tanıyırdı. Bəs mənfi işləri görənlər kimlərdir? Qaragüruh dəstəsi! Onları kim idarə edir-Arif Hacılı və onun Müsavatda rəhbər postlara təyin edilmiş qruplaşması. Deməli, buradan belə qənaətə gəlmək olar ki, A.Hacılı İ.Qəmbərin görünməyən qara simasıdır".

Beləliklə, görünən budur ki, Müsavat partiyasının bu ilin sonlarında keçiriləcəyi növbəti qurultayı daha qalmaqallı və daha sərt qarşıdurmalarla nəticəsini tapa bilər. İ.Qəmbər başqanlığa namizəd olaraq, iddiasını ortaya qoymaqla, A.Hacılı klanını özünə qarşı qaldıracaq və beləliklə, Müsavat adında partiya tamamilə siyasi səhnədən silinəcək.

***Rövşən NURƏDDİNOĞLU***

## Balakəndə evdən 20 min manat dəyərində qızıl-zinət əşyalarını oğurlayan şəxslər saxlanılıb

Avqustun 30-da Balakən Rayon Polis Şöbəsinə ərizə ilə müraciət edən rayon sakini ona məxsus evdən 29 ədəd müxtəlif qızıl-zinət əşyalarının oğurlandığını bildirib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Şəki regional qrupundan AZƏRTAC-a verilən məlumata görə, daxil olmuş müraciət əsasında polis əməkdaşları həmin ünvana gəlib, müvafiq tədbirlər həyata keçiriblər. Araşdırmalar zamanı mənzildən ümumi dəyəri 20 min manat olan qızıl-zinət əşyalarının oğurlandığı müəyyən edilib. Keçirilmiş əməliyyat-istintaq tədbirləri nəticəsində oğurluğu törədən şəxslərin kimliyi müəyyən edilib və onlar saxlanılaraq Polis Şöbəsinə gətiriliblər. Qızıl-zinət əşyalarını qabaqcadan əlbir olub bir qrup şəxs halında birləşərək gizli yolla talayıb, oğurlayan şəxslərin Balakən rayonunun İtitala kənd sakinləri Natiq Həsənov və Nuri Şabanov olduğu müəyyən edilib. Oğurladıqları qızıl-zinət əşyaları da polis əməkdaşları tərəfindən maddi sübut kimi götürülüb. Dindirilmə zamanı saxlanılan şəxslər törətdikləri cinayət əməlini etiraf ediblər.



# "Siyasi məhbus" alverçiləri arasında növbəti qalmaqal

*Bu, dağıdıcı müxalifətin nəfəslik borusudur*

***"İştaha diş altındadır" deyiblər. Pul iyi gələndə, dağıdıcı müxalifət düşərgəsinin ştatlı üzvlərinin iştahası daha da artır. Elə, son günlər olduğu kimi. "Siyasi məhbus" alverçiləri hay-küyləri ilə xarici qrant qazanmaq üçün, hətta bir-birilərinə qurşaqdan aşağı zərbə vurmaqdan çəkinmirlər. Çünki belə demək mümkün olarsa, "siyasi məhbus" mövzusu gəlir mənbəyi olmaqla, dağıdıcı müxalifətin bir növ nəfəslik borusudur. Ona görə də, son günlər dağıdıcı düşərgədə "siyasi məhbus" məsələsi ətrafında baş verənləri tamamilə təbii hesab etmək olar. Bir məqama da diqqət yetirək ki, "siyasi məhbus" alverçiləri heç də hansısa məhkumun hüquqlarını müdafiə etmək istəyində deyillər nə bir məsələ onları zərrə qədər də olsa, maraqlandırmır. Bu qovğada yenə də Qərbdəki konkret donor təşkilatlarından külli miqdarda qrant almaq həvəsi və varlanmaq ehtirası özünü açıq-aydın göstərir.***



Lakin bir məqamı demək lazımdır ki, beynəlxalq hüquqda "siyasi məhbus" ifadəsi ilə bağlı fikir ayrılıqları mövcud olsa da, ümumi qəbul olunmuş anlayış bundan ibarətdir ki, əgər bir şəxsin azadlıqdan məhrum edilməsi tam olaraq siyasi səbəblərlə əlaqədardırsa, həmin şəxs "siyasi məhbus" hesab olunur. Birmənalı tərzdə qeyd edə bilərik ki, Azərbaycanda "siyasi məhbus" yox, konkret hansısa cinayət törətmiş və buna münasib də məhkum olunmuş insanlar var.

Digər tərəfdən, Azərbaycan 2001-ci ildən Avropa Şurasının tamhüquqlu üzvüdür. Bu, həm də o deməkdir ki, biz Avropa İnsan Haqları Məhkəməsinin yuridiksiyasına daxilik və onun qəbul etdiyi qərarlar ölkəmizdə hüquqi qüvvəyə malikdir. Ona görə də, əgər kimlərsə məhkəmələrin qəbul etdiyi qərarlardan narazıdırlarsa və bu qərarın ədalətliliyinə şübhə ilə yanaşırlarsa, pozulduğunu iddia etdikləri hüquqlarını AİHM-də müdafiə edə bilərlər. Bildiyimiz qədərilə, bu günədək ortaya çıxmış siyahılarda adları yer alan məhbusların mütləq əksəriyyəti bununla bağlı heç bir addım atmayıb. Belə olduğu halda, həmin siyahılar kimə və nə üçün lazımdır?

### Səidə Qocamanlı: "Leyla Yunus xaricdə oturub, ən geniş siyahını haradan tərtib edir?"

İnsan Hüquqları üzrə Birgə İşçi Qrupunun üzvü, hüquq müdafiəçisi Səidə Qocamanlı bildirib ki, "Siyasi məhbus" alverçiləri öz maraqlarına uyğun siyahılar tərtib edir və beynəlxalq təşkilatlara işləyirlər: "Bu gün düşünülməmiş geniş siyahılar ortaya çıxır. Leyla Yunus xaricdə oturub, ən geniş siyahını haradan tərtib edir, bunu heç özü də bilmir. Çünki bu adamlar öz maraqlarına uyğun siyahılar tərtib edir və beynəlxalq təşkilatlara işləyirlər. Biz bunu yaxşı bilirik".

AXCP sədri Əli Kərimlinin "Azadlıq" radiosunun sabiq əməkdaşı, hazırda "hüquq müdafiəçi"liyi ilə məşğul olan Xədicə İsmayılla savaşı hələ də davam etməkdədir. Əvvəlcədən xatırladaq ki, hər iki şəxs uzun müddət hakimiyyətə qarşı dağıdıcı və aşırı radikallıqları ilə seçilməklə yanaşı, eyni zamanda, bir əhatə dairəsindən çıxış edirdilər. Lakin hazırkı məqamda Ə.Kərimli ilə X.İsmayıl ayrı-ayrı düşərgəyə transfer olunublar. Buna səbəb isə, yazının əvvəlində qeyd olunduğu kimi, "siyasi məhbus" siyahısında ciddi qarşıdurmanın olmasıdır. O da bəllidir ki, X.İsmayılın Avropa və beynəlxalq insan haqları təşkilatlarına təqdim olunacaq siyahısı Ə.Kərimlinin rəhbərlik etdiyi "işçi qrup" tərəfindən rədd edilib.

Yeri gəlmişkən, AXCP sədrinin rəhbərlik etdiyi "işçi qrup"da "Milli Şura"nın sədri Cəmil Həsənli və "hüquq müdafiəçisi" Oqtay Gülalıyev təmsil olunur.

"Milli Şura"nın sədri C.Həsənli guya siyahıların onlar tərəfindən hazırlanmadığını bildirib. "Siyahıları insan hüquqları ilə məşğul olan hüquq-müdafiə təşkilatları və QHT-lər hazırlayır".

Bu baxımdan, C.Həsənlinin sözügedən prosesdə AXCP sədri Ə.Kərimli ilə özünün iştirak etməməsini qeyd etməsi onun yalanını ifşa etmiş olur. Daha dəqiq desək, 128 nəfərlik siyahının təqdimatında "Milli Şura" rəhbərliyi iştirak edib və X.İsmayılın ünvanına etirazlar və ittihamlar səsləndirib. C.Həsənli bu siyahının natamam olduğunu əsas gətirib. Maraqlıdır, bu məsələlərin kökündə dayanan maraqlar nədən ibarətdir?

Beləliklə, baş verən proseslər, onu göstərir ki, Ə.Kərimlinin "siyasi məhbus" siyahısında X.İsmayılla uzlaşmayan iddialarının kökündə maddi maraqlar və elektorat toplamaq cəhdlərinin izi aşkar şəkildə görünməkdədir. AXCP sədri bu imkanı əlindən buraxmaq istəmir və hətta zamanında, yaxın dəstəkləyicilərindən olan X.İsmayılla qarşıdurmaya gedir və bu gün "siyasi məhbus" siyahısı hazırlayanlar arasında yarışmalar davam etməkdədir. Əsas məsələ, kim öz siyahısını "donorlara" sırıya bilsə, Molla Nəsrəddin demiş, "zurnanı da o çalacaq."

***Rəfiqə HÜSEYNOVA***

# Davamlı inkişaf şəraitində ailə hüquqları

**Müasir dünyada gedən qloballaşma prosesi elmi biliklər sistemində insan probleminin öyrənilməsinə yeni yanaşmanı zəruri edir. İnsan probleminin öyrənilməsində davamlı İnsan İnkişafı Konsepsiyası mühüm əhəmiyyət kəsb edir.**

Fəlsəfə elmləri doktoru S.Hüseynov yazır: "İnsan İnkişafı Konsepsiyası (İİK) cəmiyyətdəki bütün insanlar üçün iqtisadi, sosial və siyasi seçimləri təmin etməklə, hər bir ölkənin gələcək inkişaf istiqamətlərini müəyyənləşdirən əsas göstəricilərdən biri olub, sosial tərəqqiyə xidmət edir. Davamlı İnsan İnkişafı Konsepsiyası iqtisadi inkişaf, maddi rifah, həyat səviyyəsi ilə yanaşı, həm də insan həyatının geniş sosial-mədəni aspektlərini də əhatə edir.

İnsan inkişafının sosial-mədəni aspektlərindən biri ailə və məişətdir. Ailə insan inkişafında mühüm rol oynayır.

Sosioloqların fikrinə görə ailə - bir-birilə məişət birliyi, qarşılıqlı məsuliyyət, birgə həyat tərzi ilə bağlı olan, insanların nikah və qan qohumluğuna əsaslanan birliyindən ibarətdir. Ailə, əsasən, iki xarakterik xüsusiyyətinə - ailədaxili münasibətlərə və məişət birliyinə görə digər insan qruplarından fərqlənir.

Son illərdə ailə ilə bağlı ictimaiyyəti narahat edən məsələlərdən biri respublikamızda qızların erkən nikaha daxil olmasıdır. Bu haqda kütləvi informasiya vasitələrində bu haqda xeyli materiallar dərc olunmuş, bu məsələni araşdırmaq üçün sosioloji sorğular keçirilmişdir. Məsələn, 2011-ci ilin əvvəllərində Dövlət Statistika Komitəsi respublikada "Qızların erkən nikaha daxil olması və rəsmi nikahdan kənar doğum hallarının öyrənilməsinə dair" sosioloji sorğu keçirmişdir. Sosioloji sorğu 16-50 yaşadək olan 19.711 qadın arasında aparılmışdır. Sorğuda iştirak edən qadınların yaş nisbəti aşağıdakı kimidir:

1) 18 yaşa çatmamış - 37 %; 2) 18 -19 yaşda -29 %; 3) 20 -24 yaşda -25% 4) 25 -29 yaşda - 6%; 5) 30 yaşdan yuxarı - 3%

Sosioloji tədqiqatın nəticəsində bir çox faktlar aşkarlanmışdır. Məsələn, erkən yaşda ailə qurmuş qadınların 39%-i şəhər, 61-i kənd sakinləridir. Sosioloji tədqiqat nəticəsində, məlum olmuşdur ki, 18 yaşa çatmadan ərə gedən qızların 37%-i öz istəyi ilə, 26%-i valideynlərin təzyiqi ilə, 11%-i ailənin sosial-maddi çətinliyinə görə, 8%-i ərə getdiyi adamın imkanlı olduğuna görə, 6%-i qaçırıldığına görə, 2%-i sevdiyi oğlanla toya qədər hamilə olduğuna görə, qalan 10%-i isə müxtəlif səbəbdən, erkən nikaha daxil olmuşdur".

İctimaiyyəti narahat edən məsələlərdən biri də erkən nikahların rəsmi qeydə alınmaması məsələsidir. Sosioloji tədqiqat nəticəsində respondentlər erkən nikahın qeydə alınmamasının səbəbini aşağıdakı kimi izah etmişlər. Rəyi soruşulanların 41%-nin müvafiq sənədləri olmadığından, 3% vaxtilə yaşı nikah yaşına çatmadığına görə 26%-digər səbəblərdən Ədliyyə Nazirliyinin müvafiq qurumlarında qeydə alınmadığını bildirmişlər.

Fəlsəfə elmləri doktoru Rəna Mirzəzadə yazır: "Mənəvi dəyər fəlsəfəsi, bu fəlsəfədə qadın fenomeni və milli mənəviyyatda aşınmalar prosesi günümüzün aktual problemlərindəndir. İctimai münasibətlərin dərin transformasiyası, milli-mənəvi dəyərlərin dəyişməsi ailə institutuna və qadının ailədəki mövqeyinə də təsir göstərir. Ölkəmizdə son onillikdə sosial-iqtisadi inkişaf və bu dəyişikliklərin xüsusiyyəti qadının həyat səviyyəsinə, ailənin formalaşması prosesində öz izini qoymuşdur. Doğuşun aşağı düşməsi, boşanmaların artması, uşaq sahibsizliyinin və valideyn nəzarətsizliyinin artması ilə yanaşı, əsrlər boyu cəmiyyətdə cinslərarası harmonik münasibətlərin nizamlayıcısı olan ailənin, ümumiyyətlə, mənəvi deqradasiya təhlükəsi artır. İqtisadi inkişaf var, lakin mənəvi aşınmalar bu fonda azalma yox, yüksəlməyə doğru gedir. Niyə?

Müasir ailə nəhəng problemlərlə rastlaşır. Bunların institusional, ailədaxili və bilavasitə sosial-iqtisadi situasiyanın xüsusiyyətləri ilə bağlı olan problemlərə bölmək olar. Bütün bu problemlər bir-biri ilə əlaqəlidirlər və onların kəskinliyini azaltmaq üçün ailədə dəyərlərin prioritetliyi, kişi və qadınların ailə həyatı məsələlərində əxlaqi-etik dəyərlərə riayətin təmin olunması vacib şərtdir.

Ailədə şəxsiyyətlərarası münasibətlər mövcuddur və bunların öz qanun və funksiyaları vardır. Funksiyaların çoxunu da ailədə qadın icra edir. Qadının ailədə əsas funksiyası nəsil artırmaqdır, bu, ona təbiət tərəfindən bəxş edilmişdir. Məhz bu funksiya onun ailə qayğılarının əsasını təşkil edir, cəmiyyətdə yerini və rolunu müəyyənləşdirir. Qadının reproduktiv funksiyası təbii-bioloji prosesdir, onun icrasında həm qadın, həm də kişi iştirak edir. Uşaq doğumu sosial şərtlidir, çünki həm ailə, həm də cəmiyyətlə bağlıdır. Son zamanlar bu funksiyanın icrası çətinləşmişdir. Psixoloqlar, demoqraflar və sosioloqlar qeyd edirlər ki, çox uşaq saxlamaq həvəsi xeyli azalmışdır. Ailə münasibətlərində məsuliyyət dərəcəsinin aşağı düşməsi, kişi əhalisinin immiqrasiyası ilə bağlı olan hallar, nəinki bizim respublikamızda, eləcə də, əksər MDB dövlətlərində müşahidə olunur. Doğum sayının intensiv surətdə azalması, qadının ilk uşaqdan imtina etməsi səbəbindən deyil, ikinci, üçüncü və sonrakı uşaqların doğulmasının azalması nəticəsində baş verir.

Reproduktiv funksiyanın yerinə yetirilməsi qadının sağlamlığı ilə sıx əlaqəlidir. Son illərdə hamiləliyin dayandırılmasına və sonsuzluğa aparan qadın xəstəliklərinin və doğuşla bağlı digər fəsadların sayı kəskin dərəcədə artmışdır. Bir çox hallarda, buna qlobal xarakter almış ekoloji problemlər səbəb olmuşdur. Eyni zamanda, nikahdan kənar uşaq doğuşunun sayı artmış, qeydiyyata alınan nikahlar azalmış, boşanmaların sayı çoxalmışdır. Bütün bunlar qadının reproduktiv funksiyasının icrasını çətinləşdirir. Bu dəyərlərin dəyişməsində də məgər tək qadınmı məsuldur?

Qadının ikinci funksiyası uşaqların tərbiyəsidir. Yeni modellərin yaranmasından asılı olmayaraq, bu funksiya əvvəlki kimi qadının üzərinə düşür. Bu gün tərbiyə problemi tamamilə yeni xarakter almışdır. Praktiki olaraq, uşağın erkən yaşlarda tərbiyəsi ailə və məhəllə çərçivəsindən kənara çıxmır, çünki uşaq müəssisələrinin sayı yetərli deyil, kommersiya uşaq müəssisələri isə çoxları üçün əlçatmazdır. Həm də uşağa məqsədyönlü sosial-mənəvi təsir heçə enmişdir.

Tərbiyə dəyərdir və bu funksiya şüurlu yanaşma, müxtəlif emosiyalar, uşaqlara şəxsi nümunə, valideyn qayğısı və sair usulları tələb edir. Qadınların uşaqların tərbiyəsində xüsusi rolunu nəzərə alaraq, onları çətin sosial və iqtisadi problemlərdən mümkün qədər azad etmək lazmıdır, zorakı hallardan qorunmaq gərəkdir. Bax, onda aşınmalara da yer qalmaz".

S.Hüseynovun apardığı sorğu nəticəsində, məlum olmuşdur ki, respondentlər ərə getmə yaşının aşağıdakı kimi olduğunu istəyirlər:

1) 50 %-i hesab edir ki, 20-24 yaşlarında;

2) 41%-i 18-19 yaşlarında;

3) 6%-i 18 yaşa qədər ərə getməyin vacibliyini bildirir.

Bu faktlar göstərir ki, rəyi soruşulanların əksər hissəsi nikah yaşının 18-dən yuxarı olmasının tərəfdarıdır. Nikaha girmək haqqında qərarın kimlər tərəfindən verilməsi sualı da maraqlı nəticəyə səbəb olmuşdur. Belə ki, respondentlərin 67%-i hesab edir ki, ailədə nikah haqqında qərar evlənənlərin özləri tərəfindən verilməlidir, 30%-i hesab edir ki, məsələni valideynlər həll etməlidir.

Göstərmək lazımdır ki, erkən nikaha daxil olma əvvəllər, ancaq cənub bölgəsində qeydə alınırdısa, indi belə hallar bütün regionlarda baş verməkdədir. Son illərdə erkən nikahların sayı 11% artıb. Mətbuatda göstərilir ki, imkanlı və savadlı ailələrdə də erkən nikahlar çoxalmaqdadır. Belə hallar Bakının Saray, Hövsan, Əmircan, Maştağa və s. kəndlərində çoxalıb. İndiki Ailə Məcəlləsində qızlar -17 (16), oğlanlar 18 yaşlarında nikaha daxil ola bilərlər. Lakin Milli Məclisdən verilən məlumata görə, erkən nikahla bağlı qanun layihəsi hazırlanıb. Layihəyə görə, nikah yaşı 17-dən 18-ə qaldırılıb. Lakin bu sahədə fikir ayrılığı var.

Ailələrin boşanmalarına təkan verən amillərdən biri də qızlarımızın əcnəbilərlə ailə qurmalarıdır. Son illərdə əcnəbilərlə ailə quran qızlarımızın sayı xeyli artmışdır. Qızlarımızın sevgidən daha çox maddi səbəblərdən xaricilərlə ailə qurmağa meyillənmələrinin müşahidə olunması suallar doğurmaya bilməz. Ədliyyə Nazirliyinin Respublika Vətəndaşlıq Vəziyyəti Aktları Arxivinin məlumatına görə, 2005-ci ildə ölkədə 71619 nikah qeydə alınıb. Onlardan 1134-ü azərbaycanlılarla əcnəbilər arasında bağlanıb. 2006-cı ildə isə əcnəbilərlə bizimkilər arasında 1476 nikah bağlanıb. Son iki ildə əcnəbilərlə nikaha girən qızların sayı oğlanlardan çoxdur.

S.Hüseynov qeyd edir ki, son beş ilin göstəricilərinə əsasən, 500-dən çox qız Türkiyəyə gəlin köçüb. Azərbaycanın cənub bölgəsindən olan 400 qızımız iranlılarla evlənib. Avropaya üz tutanlar da az deyil. Xoşbəxtliyi Almaniyada axtaranlar 250 nəfərdir. Azərbaycanlı qadınlarla rəsmi nikaha girən əcnəbilər arasında ABŞ (130), Böyük Britaniya (100), Pakistan (50), Əfqanıstan (32), İsveç (30), Birləşmiş Ərəb Əmirlikləri (30), Hindistan (25) və Səudiyyə Ərəbistanından (15) olanlar da var. Bu ailələr arasında nikahdan bir il sonra boşananlar da az deyil. Rəsmi statistikaya görə, 2005-ci ildə 60, 2006-cı ildə 58 boşanma faktı qeydə alınıb. Azərbaycanlı qızlar kəbin yolu ilə bəzi müsəlman ölkələrinin vətəndaşları ilə nikaha girirlər. Qızlarımızın xarici vətəndaşlarla evlənmələrinin səbəbi evdə qalmaq qorxusu deyil. Əcnəbilərlə nikah iqtisadi problemlər və psixoloji amillərlə əlaqədardır.

Araşdırmalar göstərir ki, indiki qloballaşma dövründə davamlı insan inkişafının təmin edilməsi qurulan ailələrin möhkəmliyindən daha çox asılıdır. Yəni hər hansı bir cəmiyyətdə möhkəm və xoşbəxt ailələrin qurulması davamlı insan inkişafının təmin edilməsinə xidmət edir.

Ailə və məişətin özünəməxsus funksiyaları vardır ki, bunlar da aşağıdakılardır: reproduktiv, təsərrüfat, bərpaedici, tərbiyəvi və s. Ailə və məişətin bütün funksiyaları davamlı insan inkişafının təmin edilməsinə xidmət edir. Məsələn, ailənin tərbiyəvi funksiyasına insanı sosial cəhətdən formalaşdıran bütün tərbiyə növləri daxildir. Buraya əqli və fiziki tərbiyə, əxlaqi, estetik, əmək, siyasi, hüquqi, milli-mənəvi, ekoloji və s. tərbiyə növləri daxildir. Ailədə uşaqların tərbiyəsi cəmiyyətin tərəqqisi üçün mühüm əhəmiyyət kəsb edir. Çünki uşaqlar hər bir ölkənin və dünyanın gələcək vətəndaşlarıdır. Deməli, həm ölkələrin, həm də gələcək dünyanın ümumi tərəqqisi yeni doğulan uşaqların əqli və fiziki tərbiyəsindən, onların bilik, bacarıq və dünyagörüşü səviyyəsindən asılıdır. Ailə- məişətdə uşaqların düzgün tərbiyəsi bizim xoşbəxt qocalığımız, pis tərbiyə isə, bizim gələcək dərdimiz və bütün ölkə qarşısında təqsirimizdir. Bütövlükdə isə, davamlı insan inkişafının perspektivi-təməli möhkəm qurulan, milli-mənəvi dəyərlərimizə söykənən məhəbbət, sevgi və qarşılıqlı anlaşmaya əsaslanan ailələrdən asılıdır.

**Vahid Ömərov,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# Ürəkbulanma və qusma infarktın əlaməti ola bilər



**Eyni xəstəliklərin simptomları qadın və kişilərə görə fərqli ola bilər. AZƏRTAC Zdorovye Mail.Ru saytına istinadla xəbər verir ki, bir sıra xəstəliklər kişilər və qadınlarda müxtəlif formalarda özünü büruzə verir. Bu simptomların fərqliliyi həyat üçün təhlükəli ola bilər.**

### İnfarkt

Çoxlarına infarktın ilk simptomları məlumdur. Bunlar əsasən döş qəfəsində ağrı və sıxılma hissi, nəfəs almada çətinliklərdir. Mütəxəssislərin fikrincə bu kişilərə xas xüsusiyyətlərdir. Bəzi qadınlarda da eyni simptomlar ola bilər, lakin bunu hamıya şamil etmək düzgün deyil. Belə ki, hələ qədim zamanlardan bir çox xəstəliklərin tədqiqi kişilər üzərində aparılıb və nəticələrin hamıda, yəni kişi və qadınlarda eyni olacağı düşünülüb. Lakin bir neçə müddət əvvəl həkimlər infarktın kişilərə nisbətən qadınlarda daha fərqli baş verdiyini müşahidə ediblər. Bildirilib ki, bu səbəbdən kişilərə və qadınlara infarktdan fərqli müalicə tətbiq olunmalıdır. Əks halda kişilərin müalicəsində kömək edən üsul qadınların ölümünə səbəb ola bilər.

Alimlər bu prosesin qadınlarda necə baş verdiyini öyrənmək məqsədilə araşdırma aparıblar. Məlum olub ki, ürək tutması zamanı qadınlar döş qəfəsində deyil, kürəkdə, çənədə, boyunda və qarında ağrı hiss edə bilərlər. Bundan əlavə xanımlarda ürək tutması zamanı baş gicəllənməsi, təngnəfəslik, ürək bulanması, qusma və həddindən artıq tərləmə kimi əlamətlər də ola bilər. Sadalanan qeyri-adi simptomlar səbəbindən infarkt adi soyuqdəymə və ya mədə problemi kimi də qəbul edilə bilər ki, bu da zaman itkisi ilə nəticələnər.

### Alkoqolizm və narkomaniya

Müəyyən maddələrdən asılılıq da qadınlar və kişilərdə müxtəlif formalarda özünü büruzə verir. Misal üçün kişilər qadınlara nisbətən pis vərdişlərə daha tez aludə olurlar. Qadınlar isə bu problemlə daha yuxarı yaşda üzləşirlər. Buna baxmayaraq qadınlar müalicə üçün daha sıx müraciət edirlər ki, bu da onların asılılıq dövrünü nisbətən azaldır. Hər iki cinsin zərərli maddə istifadəsinin səbəbləri də fərqlidir. Qadınlar çox vaxt bu vərdişlərə yanaşı psixi pozuntular, depressiyalar və həyəcan kimi problemlər səbəbindən aludə olurlar. Kişilər isə içki və narkotiklərdən xoş təəssürat, stressin aradan qaldırılması kimi bir sıra səbəblərdən istifadə edirlər.

### Sidik sistemi xəstəlikləri

Sidik sistemi xəstəliklərinin kişi və qadınlarda fərqli xüsusiyyətləri olur. Kişilərə nisbətən qadınlar sidik kisəsi xəstəliklərindən daha çox əziyyət çəkirlər. Buna səbəb qadınlarda sidik kanalının kişilərə nisbətən daha qısa olmasıdır ki, bu da müxtəlif bakteriyaların asanlıqla kisəyə düşməsinə problem yaratmır. Kişilərdə isə əksinə sidik kanalı iltihabı çoxdur. Belə ki, kanalın uzun olması infeksiyaların sidik kisəsinə çatmadan orada inkişaf etməsinə şərait yaradır.

### Şizofreniya

Bu psixi pozuntu qadınlara nisbətən kişilərdə daha erkən yaşlarda yaranır. Kişilərdə şizofreniyanın ilk simptomları 18-25, qadınlarda isə 25-35 yaşlarında meydana çıxır. Qadınlarda bu problem daha gec-40 yaşdan sonra da özünü büruzə verə bilər.

Xəstəliyin özünü göstərməsi cinslərə görə də dəyişir. Kişilərdə xəstəlik özünü apatiya, halsızlıq, yuxusuzluq, qavrama qabiliyyətlərinin pozulması kimi bir sıra mənfi simptomlarla bəlli edir. Qadınlarda isə şizofreniya depressiya, yüksək həyəcan, paranoid psixoz, qəribə fikirlərlə müşahidə edilir.

Şizofreniya diaqnozu olan qadınlar xəstəlik zamanı klinikalarda daha az zaman keçirir, vəziyyətləri daha asan tənzimlənir. Mütəxəssislərin fikrincə buna səbəb dərman preparatlarının qadınlara daha yaxşı təsir etməsidir. Kişilərdə isə bu preparatların nisbətən az təsiredici olması ilə yanaşı, onların cinsiyyət orqanlarına da mənfi təsir göstərir. Məhz bu səbəbdən də kişilər dərman vasitələrindən imtina edir, müalicəni yaradı dayandırırlar.

**səs**

Son səhifə 5 sentyabr

# Karateçilərimiz beynəlxalq turnirdə 11 medal qazanıblar



İsveçrənin Bazel şəhərində karate üzrə 9-cu nüfuzlu “Bazel Open Masters” turnirində iştirak edən Azərbaycan milli komandasının üzvləri 4 qızıl, 4 gümüş və 3 bürünc medalla yüksək nəticə göstəriblər. SİA-nın məlumatına görə, Azərbaycan Milli Karate Federasiyasından (AMKF) bildiriblər ki, kumite turnirində Rafiz Həsənov (67 kq), Rafael Ağayev (75 kq), Asiman Qurbanlı (84 kq-dan yuxarı) və İrina Zaretska (68 kq) çempion olublar. Tural Ağalarzadə (67 kq) və Şahin Atamov (84 kq-dan yuxarı) gümüş medal qazanıblar. Firdovsi Fərzəliyev (60 kq) və Nuranə Əliyeva (50 kq) isə bürünc mükafata yiyələniblər. “Masters” turnirində Ş.Atamov və İlahə Qasımova ikinci pilləni, İrina Zaretska üçüncü yeri tutublar. Otuz bir ölkədən müxtəlif yaşlı idmançının qatıldığı yarışın ardından milli komandamız beynəlxalq təlim-məşqlərdə iştirak edir.

Turnirin və beynəlxalq təlim-məşqlərin təşkilatçısı, İsveçrə Şotokan Karate Do Federasiyasının prezidenti Zubeyir Şahinin dəvəti ilə bu ölkədə olan Azərbaycan milli komandası bir həftəlik hazırlıqdan sonra Berlinə Karate-1 Premyer Liqa turnirinə yollanacaq. Təşkilatçılar dünyada yüksək reytinqi olan Azərbaycan komandasının bütün xərclərini üzərinə götürüb. AMKF-nın prezidenti Yaşar Bəşirovun rəhbərlik etdiyi heyətdə milli komandanın baş məşqçisi Şahin Xudaverdiyev, böyük məşqçi Qurban Tağıyev, məşqçi Denis Morozov, əsas heyətdən Firdovsi Fərzəliyev (60 kq), Tural Ağalarzadə, Rafiz Həsənov (hər ikisi 67 kq), Rafael Ağayev (75 kq), Şahin Atamov, Asiman Qurbanlı (hər ikisi 84 kq-dan yuxarı), eləcə də Nuranə Əliyeva (50 kq), İlahə Qasımova (55 kq), Fəridə Abiyeva (61 kq) və İrina Zaretska (68 kq) yer alıblar. Ayxan Mamayev (84 kq) isə sentyabrın 5-də komandaya qoşulacaq.

# Gənc taekvondoçumuz Rusiyada qızıl medal qazanıb




Rusiyada G1 kateqoriyalı beynəlxalq turnirə start verilib. Yarışda Azərbaycanın gənclərdən ibarət taekvondo üzrə Olimpiya komandası da dörd idmançı ilə təmsil olunur. AZƏRTAC xəbər verir ki, baş məşqçi, Əməkdar məşqçi Məmməd Abdullayevin və böyük məşqçi Zahid Məmmədovun yetirmələri artıq yarışın ilk günündə hesablarına qızıl medal yazdırıblar.

Qırx beş kiloqram çəki dərəcəsində dayanq üzərinə çıxan Hatəm Həsənli rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. H.Həsənlinin digər komanda yoldaşları Cavad Ağayev (63 kq), Taleh Süleymanov (73 kq) və Minayə Əkbərova (46 kq) isə sentyabrın 4-də mübarizəyə qoşulacaqlar.

# Dünya çempionatında Azərbaycanı təmsil edəcək bədii gimnastlar müəyyənləşib



Sentyabrın 9-dan 16-dək Bolqarıstanda bədii gimnastika üzrə dünya çempionatı keçiriləcək. Azərbaycan Gimnastika Federasiyasının məlumatında deyilir ki, Sofiya şəhərindəki “Armeyets” arenasında keçiriləcək çempionata 60 ölkədən 900-dən çox qonaq qatılacaq. Çempionatda fərdi yarışlarda 176, komanda yarışlarında isə 36 kollektivin tərkibində 215 gimnast mübarizə aparacaq.

Azərbaycan gimnastları da bu turnirdə fərdi və komanda yarışlarında qüvvələrini sınayacaqlar. Mundialda ölkəmizi qrup proqramında Aliyə Paşayeva, Siyana Vasileva, Ayşən Bayramova, Diana Doman və Zeynəb Hümmətova təmsil edəcəklər. Fərdi yarışlarda isə Veronika Hudis, Zöhrə Ağamirova və Darya Sorokina xalça üzərinə çıxacaqlar. Bu yarışlar Bolqarıstanın ev sahibliyi etdiyi üçüncü dünya çempionatıdır. 1969-cu və 1987-ci illərdə də dünya birinciliyi Bolqarıstanda keçirilib.

# “Millini “Real”a dəyişdiyim üçün peşman deyiləm”




“Real”ın baş məşqçisi Xulen Lopeteqi DÇ-2018-in startına az qalmış İspaniya millisindən qovulması məsələsinə aydınlıq gətirib. Qol.az-ın “goal.com”a istinadən yaydığı xəbərə görə, ispan mütəxəssis yığmadan ayrılıb “Real”ın sükanı arxasına keçdiyi üçün peşman olmadığını bildirib: “Bu, adi qərar idi. Yenə olsaydı, yenə eyni addımı atardım. Mən dürüst hərəkət etdim və heç nəyə görə təəssüflənmirəm. Olanları dəyişə bilmərik. Geriyə baxmaq istəmirəm. Təqdimat mərasimində öz hisslərimi bildirdim. O gündən bu yana heç nə dəyişməyib”.

Lopeteqi millinin yeni baş məşqçisi Luis Enrike haqda da danışıb: “Ümid edirəm ki, yığmadakı işi yaxşı alınacaq. Qarşısında böyük hədəflər dayanır. Hər zaman İspaniya millisinin azarkeşi olaraq qalacağam. Amma “Real”ı çalışdırdığım üçün çox xoşbəxtəm”. Qeyd edək ki, Lopeteqi DÇ-2018-in başlamasına 2 gün qalmış “Real”la anlaşdığı üçün İspaniya millisindən istefaya göndərilmişdi.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.**
**“Azərbaycan” nəşriyyatında çap olunur**
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**